# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


SƏS

№ 185 (7353)

10 oktyabr 2025-ci il.
Qiyməti 60 qəpik


## YAP və Venesuela Vahid Sosialist Partiyası arasında əməkdaşlıq perspektivləri müzakirə olunub



2

## Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub



2

# TDT-nin hərbi blokunun yaradılması zərurətə çevrilir



4

## İctimai nəqliyyatda gediş haqqı artdı - bəs keyfiyyət necə ?



11

## BOKT-larda kredit şərtləri: fırıldaqçılıq, yoxsa...




16

## Paşinyan konstitusiya dəyişikliyi məsələsində "ilişib"...



8

## Ölən və öldürən məktəblilər



6

## Xalq artisti Əminə Yusifqızı vəfat edib



16

# Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub

***Oktyabrın 9-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident Vladimir Putin bildirib ki, qarşılıqlı maraqlarımız bir çox sahələrdə üst-üstə düşür və çox yaxındır:***

-Hörmətli İlham Heydər oğlu.

Bu yaxınlarda biz - doğrudur, Pekində hər halda qısa da olsa görüşdük. Buna qədər bir neçə dəfə telefonla danışmışıq.

Görüşümüzə daha həssas mövzu - bizim hava məkanında baş verən aviasiya faciəsi ilə başlamaq istərdim. Artıq həmin vaxt bizim aramızda birinci telefon danışığı əsnasında mən faciənin məhz Rusiya səmasında baş verdiyinə görə üzr istədim, həm də həlak olanların ailələrinə ən səmimi başsağlığı verdim. İstərdim ki, bütün bunları təkrar edim, yenidən söyləyim və qeyd edim, biz sözsüz ki, razılaşdığımız kimi, istintaqa hər cür kömək göstəririk.



İstintaq başa çatmaq üzrədir və indi ümumilikdə bu faciənin, bu qəzanın səbəbləri barədə danışmaq olar. O, bir neçə amillə əlaqədardır.

Birincisi, ondan ibarətdir ki, səmada Ukraynanın pilotsuz uçuş aparatı vardı. Biz faciə günü gecə Rusiya Federasiyasının sərhədini keçən üç belə pilotsuz aparatını eyni vaxtda izləyirdik.

İkinci səbəb Rusiyanın hava müdafiə sisteminin özündə texniki nasazlığın olmasından ibarətdir. Buraxılan iki raket birbaşa təyyarəyə dəyməyib, - əgər bu baş versəydi, təyyarə yerindəcə məhv olardı, - raketlər partlayıb, ola bilər ki, bu, bir neçə metr məsafədə, təqribən 10 metrlik məsafədə özünü məhv etmək olub. Ona görə də təyyarə zədələnib, amma əsas məsələ odur ki, məhvedici döyüş elementləri ilə deyil, yəqin raketin parçalarının özü ilə. Məhz bu səbəbdən pilot hadisəni quş sürüsü ilə toqquşma kimi qiymətləndirib, bu barədə rusiyalı dispetçerlərə məlumat verib, bütün bunlar "qara qutular"da qeyd olunub. Həmçinin ona təklif olunub ki, - bu da "qara qutular"da var, yaxşı eşidilir, - Mahaçqalaya eniş etsin, amma o, qalxdığı aeroporta qayıtmaqla bağlı qərar qəbul edib, sonra isə Qazaxıstana uçub. Bununla belə, fakt faktlığında qalır.

Faciənin səbəblərini indi Sizə təqdim etdim. Bütün bunlar baş verənlərin texniki xarakteristikasının dəqiq analizindən və "qara qutular"ın nəticələrinin saniyəbəsaniyə yoxlanılmasından sonra sənədlərdə öz əksini tapıb.

Biz Sizinlə bu mövzunu sonradan müzakirə etdik. Sözsüz ki, belə hallarda, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək.

Əlbəttə, bu faciə ilə bağlı ailələrin dəstəklənməsinə, onlara mənəvi dəstək verilməsinə yönəlmiş bütün sözlər belə hallarda əsas problemi həll etmir - faciə nəticəsində həlak olmuş insanları həyata qaytarmaq mümkün deyil.

Amma bizim borcumuz, bir daha təkrar edirəm, biz Sizinlə əvvəldən baş verənlərə obyektiv qiymət vermək və əsl səbəbləri üzə çıxarmaq barədə razılaşmışdıq. Ancaq bu, müəyyən vaxt tələb edir. Qəti nöqtəni qoymaq üçün yəqin ki, hələ bir az vaxt tələb olunacaq. Amma ümumilikdə, mən Sizə əsasən elə bu görüşümüz ərəfəsində - dünən, srağagün aldığım məlumatları çatdırdım. Hətta düzünü desək, bu gün gecə Moskvaya zəng etdim və əlavə hər hansı detalların olduğunu soruşdum. Deməək olar ki, Sizə mənə məlum olanların hamısını danışdım. Bu, birinci hissədir.



İkincisi. Qeyd etmək istərdim ki, buna baxmayaraq, bizim maraqlarımız, qarşılıqlı maraqlarımız bir çox sahələrdə üst-üstə düşür və çox yaxındır. Əlbəttə, hər şeydən əvvəl bu, iqtisadi-ticari əlaqələrə aiddir. Bu faciə ilə əlaqədar indi danışdığım bütün nüanslara, onunla əlaqədar hansısa məsələlərə baxmayaraq, iqtisadi-ticari əlaqələr inkişaf edib və uğurla inkişaf edir. Keçən il ticarət dövriyyəsində təqribən 6 faiz, bu il isə 16 faizdən çox artım olub. Bu, çox yaxşı göstəricidir.

Sizin bu mövzuya diqqətiniz sayəsində bizim humanitar əlaqələrimiz həmişə yüksək səviyyədə olub. Ancaq biz indi bu barədə hələ danışacağıq. Birincisi, bununla bağlı Sizə minnətdarıq, ikincisi, əlbəttə, özümüz də hər şeyi edəcəyik ki, bu dinamika qorunub saxlanılsın.

Təbii ki, bizim XİN-lər regionda vəziyyətlə bağlı, ümumilikdə beynəlxalq arenada şəraitlə əlaqədar həmişə bir-biri ilə çox sıx fəaliyyət göstərib. Ümidvaram ki, bu əməkdaşlıq, sadəcə, bərpa olunmayacaq, həm də bizim münasibətlərimizin, müttəfiqliyimizin ruhunda davam edəcək. Biz bunu heç vaxt unutmuruq, o qədər də uzaq olmayan keçmişdə imzalanan müqaviləni xatırlayırıq və öz tərəfimizdən hər şeyi edəcəyik ki, onun bütün əsas müddəaları həyata keçirilsin.

Sizə təşəkkür edirəm.

x x x

Prezident İlham Əliyev:

-Vladimir Vladimiroviç, çox sağ olun.

Əvvəlcə görüşə görə Sizə təşəkkürümü bildirmək istərdim. Siz qeyd etdiyiniz kimi, biz Pekində Sizinlə qısaca görüşdük, həmçinin elə iki gün əvvəl doğum gününüzlə əlaqədar Sizə zəng etdim. Fürsətdən istifadə edərək, Sizi bir daha təbrik etmək və Sizə, yaxınlarınıza, dost Rusiya xalqına ən xoş arzularımı çatdırmaq istərdim.

Əlbəttə, Azərbaycan Hava Yollarının təyyarəsinin keçən ilin dekabrında qəzaya uğraması ilə bağlı faciə haqqında ətraflı informasiyaya görə xüsusilə təşəkkür edirəm. Biz Sizinlə dərhal təmasa keçdik. Xatırlayırsınızsa, bu faciəli gündə mən Sankt-Peterburqda görüşə uçurdum və mənə məlumat verildikdə təyyarədən dərhal Sizə zəng etdim və birbirimizə başsağlığı verdik. Həmçinin Sizdən MDB-nin qeyri-rəsmi sammitində iştirak edən həmkarlarımıza da obyektiv səbəblərdən bu tədbirdə iştirak edə bilməyəcəyimi çatdırmağınızı xahiş etdim.

Eyni zamanda, bu vəziyyəti nəzarətdə saxladığınıza görə Sizə təşəkkür etmək istərdim. Sizinlə dəfələrlə fikir mübadiləsi aparmışıq, həmçinin komandalarımızın üzvləri daim təmasdadırlar. Siz şəxsən istintaqın gedişinə nəzarət edirsiniz və bizim heç bir şübhəmiz olmayıb ki, o, bütün məsələləri obyektiv araşdıracaq. Ona görə də bizim görüşümüzdə məhz bu məsələyə aydınlıq gətirməyi zəruri hesab etdiyiniz üçün Sizə bir daha minnətdarlığımı ifadə etmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bu il təkcə iqtisadi-ticari münasibətlər deyil, həm də bütün istiqamətlər üzrə əlaqələr uğurla inkişaf edir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika mövcuddur. Həmçinin bütün başqa istiqamətlər üzrə heç bir yerdə hər hansı gecikmə və yaxud geriləmə olmayıb. Əksinə, Sizinlə təsdiq etdiyimiz yol xəritələri uğurla həyata keçirilir.

Həmçinin bu yaxınlarda Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının iclası keçirilib, həmsədrlər təkcə iqtisadi-ticari deyil, bütün məsələlərin geniş spektrini ətraflı müzakirə ediblər.

Əlbəttə, bu gün gündəliyi bir daha nəzərdən keçirmək üçün yaxşı imkandır. O, kifayət qədər geniş və müsbətdir. Beləliklə, bu informasiyaya görə bir daha təşəkkür edirəm və əminəm ki, bu gün cəmiyyətlərimizə göndərdiyiniz mesajlar da müsbət qarşılanacaq.

Prezident Vladimir Putin: Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

# YAP və Venesuela Vahid Sosialist Partiyası arasında əməkdaşlıq perspektivləri müzakirə olunub

Oktyabrın 9-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Venesuela Bolivar Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kristofer Alberto Martinez Berroteran arasında görüş keçirilib. Partiyadan AZƏRTAC-a bildirilib ki, görüşdə dövlət başçılarının iki ölkə arasında əlaqələrin inkişafına mühüm önəm verdikləri, müxtəlif istiqamətlərdə, o cümlədən energetika, təhsil, gənclər və idman, turizm, mədəniyyət və digər sahələrdə səmərəli əməkdaşlıq üçün geniş potensialın mövcud olduğu qeyd edilib.

Azərbaycan ilə Venesuelanın qlobal müstəvidə, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar səviyyəsində işbirliyini diqqət mərkəzində saxlayaraq bir-birinin mənafelərini müdafiə etdikləri, eləcə də ərazi bütövlüyü və suverenliyini dəstəklədikləri vurğulanıb. Ədalətli geosiyasi nizamın tərəfdarı olan hər iki ölkənin beynəlxalq hüquq normalarına əsaslanmaqla dünya miqyasında neokolonializmin bütün təzahürlərinə qarşı qətiyyətlə mübarizə apardıqları bildirilib.





Görüşdə Yeni Azərbaycan Partiyası ilə Venesuela Vahid Sosialist Partiyası arasında gələcək əməkdaşlıq perspektivləri də müzakirə olunub. Ölkələrimizin səmimi dostluq münasibətlərinin hakim partiyalar arasında əlaqələrin yaradılması və inkişaf etdirilməsi üçün əlverişli zəmin formalaşdırdığı qeyd olunub, gənclər arasında təmasların sıxlaşdırılmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan - Tacikistan: strateji münasibətlər

## Prezident İlham Əliyev: "Ortaq iradədən qaynaqlanan dövlətlərarası əlaqələrimizin yüksələn xətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatması məmnunluq doğurur"



Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə dostluq və əməkdaşlıq əlaqələri xalqlarımız arasında mövcud olan səmimi münasibətlər, tarixi mədəni əlaqələr əsasında inkişaf edir. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Otuz ildən artıqdır ki, ölkələrimiz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparır, bir-birilərinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdirirlər. Azərbaycan bu gün Prezident İlham Əliyein müdrik və uzaqgörən siyasəti sayəsində türk dövlətləri sırasında nüfuz və söz sahibinə, etibarlı tərəfdaşa, aparıcı regional və beynəlxalq aktora çevrilib, onunla əməkdaşlıq etmək istəyən ölkələrin sayı isə durmadan artır. Bu, dövlət başçımızın 22 il ərzində bütün sahələr üzrə atdığı praqmatik addımlar və aydın hədəflər nəticəsində mümkün olmuşdur. Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlarımızın qorunmasına hesablanmış uğurlu və dünya ölkələrinə nümunə olacaq xarici siyasət kursu həyata keçirilir. Ölkəmiz beynəlxalq aləmdə yüksək etimada və nüfuza malikdir. Dövlətimizin xarici siyasətində Mərkəzi Asiya ölkələri ilə əlaqələrin inkişafı əsas istiqamətlərdən birini təşkil edir.

Tarixi Zəfərimizlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında qarşılıqlı və ardıcıl səfərlər həyata keçirilir. Bunun da nəticəsində region dövlətləri ilə ölkəmiz arasındakı əlaqələrdə böyük canlanma müşahidə olunur.

Azərbaycanın çoxşaxəli uğurlu xarici siyasətində Tacikistanla da əlaqələr mühüm əhəmiyyətə malikdir. Təbii ki, əlaqələrin inkişafında səmimi dostluq münasibətləri, dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivliyində və məhsuldarlığında özünü göstərir. Qeyd edək ki, Prezident İlham Əliyevin son illərdə Mərkəzi Asiya, o cümlədən regionun türkdilli ölkələrinə ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri əlaqələrimizin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir. Bu səfərlər zamanı imzalanan müqavilələr, sazişlər ölkələrimiz arasında münasibətlərin qarşıdakı dövr üçün əsas istiqamətlərini müəyyənləşdirir.

### "AZƏRBAYCAN İLƏ TACİKİSTAN ARASINDA MÜNASİBƏTLƏRİN HAZIRKI YÜKSƏK SƏVİYYƏSİ XALQLARIMIZIN BİR-BİRİNƏ BƏSLƏDİYİ DƏRİN HÖRMƏT VƏ ETİMADDAN İRƏLİ GƏLİR"

Tacikistanla da Azərbaycan arasında qarşılıqlı anlaşma mühiti mövcuddur. Xalqlarımızın əsrlərə söykənən tarixi, mədəni, dini bağlılığına əsaslanan bu münasibətlər xüsusilə son dövrlərdə dövlətlərimizin başçılarının siyasi iradəsi ilə daha da genişlənərək inkişaf edir. Hər iki dövlətin aktual regional və beynəlxalq məsələlərdə mövqeləri eynidir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Azərbaycan ilə Tacikistan arasında münasibətlərin hazırkı yüksək səviyyəsi xalqlarımızın bir-birinə bəslədiyi dərin hörmət və etimaddan irəli gəlir. Bu ortaq iradədən qaynaqlanan dövlətlərarası əlaqələrimizin yüksələn xətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatması məmnunluq doğurur".

Azərbaycanın Tacikistan ilə ikitərəfli formatda əməkdaşlıq əlaqələrinin dinamikası artan xətt üzrə inkişaf edir. Ölkələrimiz uzun illərdir ki, həm beynəlxalq platformalarda, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli formatda bir çox istiqamətlər üzrə əməkdaşlıq edirlər. Eyni zamanda da bu əməkdaşlığın, o cümlədən ticari-iqtisadi, sənaye kooperasiyası, nəqliyyat sahələrində daha da dərinləşməsi üçün çox yaxşı perspektivlər mövcuddur.

İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il mayın 29-da qurulub. 2007-ci ildə Azərbaycanın Tacikistanda, bir il sonra isə Tacikistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb.Ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun şəxsi dostluq münasibətləri mühüm rol oynayır. Səmimi dostluq münasibətləri dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivliyində və məhsuldarlığında da özünü göstərir.

### "BÜTÜN TÜRKDİLLİ ÖLKƏLƏRLƏ MÜNASİBƏTLƏR BİZİM ÜÇÜN PRİORİTETDİR"

Azərbaycan və tacik xalqları arasında tarixi, mədəni və dini bağlılıqlar iki ölkə arasındakı əlaqələrin əsasını təşkil edir. İki ölkə arasında ümumilikdə 70-dən çox sənəd, o cümlədən 2007-ci il martın 15-də "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə" imzalanıb. İqtisadi əlaqələrə gəldikdə vurğulamaq lazımdır ki, iki dost ölkə arasında siyasi münasibətlər yüksək səviyyədə olsa da, iqtisadi sahədə əlaqələr ölkələrimizin potensialını tam əks etdirmir.

Azərbaycan-Tacikistan mədəni əlaqələri də məhsuldarlığı ilə seçilir. Ölkələrimiz arasında qarşılıqlı mədəniyyət günləri və kino həftəsi keçirilib. Belə ki, 2007-ci il dekabrın 18-22-də Azərbaycanda Tacikistan Mədəniyyət Günləri, bir il sonra noyabrın 9-12-də isə Tacikistanda Azərbaycan Mədəniyyət Günləri keçirilib. 2015-ci il martın 9-12-də Bakıda Tacikistan kinosu günləri baş tutub. Paytaxtla yanaşı, Gəncədə də keçirilən mədəniyyət günləri çərçivəsində Bakıda Tacik Kino Günləri də təşkil olunub. Düşənbədə azərbaycanlı heykəltaraşlar Fuad Əbdürrəhmanovun (Rudəkinin heykəli, 1964-cü il) və Ömər Eldarovun (Sədrəddin Ayinin heykəli, 1978-ci il və İbn Sinanın heykəli, 1980-ci il) əsərləri mövcuddur. 2022-ci ildən əvvəl Bakı və Düşənbə şəhərləri arasında Qardaşlaşma haqqında memorandum imzalanıb. Bundan başqa, Xocənd şəhəri və Gəncə qardaşlaşmış şəhərlərdir.

Məlumdur ki, Vətən müharibəsindən sonra Azərbaycanın nəqliyyat-logistika imkanlarının genişlənməsi, Zəngəzur dəhlizinin reallaşdırılması məsələsi ölkəmizi Şərqlə Qərb arasında mühüm nəqliyyat qovşağına çevirib. Təsadüfi deyil ki, bu gün Mərkəzi Asiya ölkələrindən, bir qədər də uzağa getsək, Çindən Avropaya gedən ən qısa və təhlükəsiz tranzit daşımalar məhz ölkəmizin ərazisindən həyata keçirilir, bu da Azərbaycana marağı getdikcə artırır. Dünyada cərəyan edən son hadisələr fonunda Azərbaycanın da üzərində yerləşdiyi Orta Dəhlizin əhəmiyyəti artmaqdadır. Dövlətimizin başçısının uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanda müasir nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Azərbaycan reallaşdırdığı nəhəng infrastruktur layihələri ilə Avropa ilə Asiya arasında vazkeçilməz nəqliyyat qovşağına və tranzit mərkəzə çevrilməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində "Azərbaycan isə Avropa ilə Asiyanın qovuşuğunda yerləşən birləşdirici ölkə kimi özünün nəqliyyat infrastrukturu ilə, əlbəttə ki, bu məsələdə mühüm rol oynayır", - deyə bildirib. Təbii ki, Azərbaycan - Tacikistan münasibətləri ölkələr arasında əməkdaşlığı yeni inkişaf səviyyəsinə yüksəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun birgə imzaladıqları strateji tərəfdaşlıq haqqında Bəyannamə də əlaqələrin genişlənməsində öz sözünü deyir.

Bu gün türk dövlətləri arasında münasibətlərin dərinləşməsində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mühüm rola malikdirlər və prosesə böyük töhfələr verirlər. Məhz Azərbaycan və Türkiyə liderlərinin səyləri və qətiyyəti sayəsində reallaşan Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycan, Türkmənistan və Qazaxıstan neftini dünya bazarlarına fasiləsiz çatdırır. Onurğa sütununu TANAP-ın təşkil etdiyi Cənub Qaz Dəhlizi sayəsində türk dövlətləri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayırlar.

Türk dünyası ölkələri ilə əlaqələrin, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı çıxışlarının birində bildirib: "Təsadüfi deyil ki, hətta mənim səfərlərimin və qardaş ölkələrin dövlət başçılarının səfərlərinin son xronologiyasına baxsaq, bizim bu məsələyə əlavə dinamizm verdiyimizi görmək olar. Bütün türkdilli ölkələrlə münasibətlər bizim üçün prioritetdir. Xüsusən indiki geosiyasi vəziyyətdə biz qarşılıqlı dəstəyin, dövlətlərimizin müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsinin, əməkdaşlığımıza konkret məzmun verməyin zəruriliyini nəzərə alaraq ümumi maraqlar ətrafında daha sıx birləşməliyik".

Siyasi müstəvidə BMT, İƏT, Qoşulmama Hərəkatı və digər beynəlxalq qurumlarda birbirinin yanında olmaq, sülh və təhlükəsizlik uğrunda birgə mübarizə aparmaq bu ölkələrin əsas hədəflərindəndir. İqtisadi müstəvidə isə qarşılıqlı mənfəətə əsaslanan əməkdaşlıq getdikcə güclənir.

İqtisadi əlaqələrə gəldikdə vurğulamaq lazımdır ki, iki dost ölkə arasında siyasi münasibətlər yüksək səviyyədə olsa da, iqtisadi sahədə əlaqələr ölkələrimizin potensialını tam əks etdirmir. Hər iki ölkənin iqtisadi potensialı ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artırılmasına imkan verir. Tacikistan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizindən (Orta Dəhliz) də fəal istifadə edir.

Azərbaycan Tacikistanın etibarlı dostu və tərəfdaşıdır. Ölkələrimizi zamanın sınağından çıxmış münasibətlər birləşdirir. Əldə edilən razılaşmalar qardaş xalqların dərin maraqlarına cavab verir və Tacikistan-Azərbaycan münasibətlərinin möhkəm təməlinə çevrilib. İki ölkə arasında münasibətlərin inkişafı üçün böyük potensial var və qarşılıqlı səfərlər əməkdaşlığın sürətlə genişləndirilməsi baxımından mühüm imkanlar yaradır və ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsinə yeni töhfələr verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# TDT-nin hərbi blokunun yaradılması zərurətə çevrilir

Dünya miqyasında türkdilli xalqların və dövlətlərin rolu və nüfuzu durmadan artır. Səbəbi də heç şübhəsiz ki, beynəlxalq güc mərkəzinə çevrilməsidir. Harada, hansı bölgədə təbii fəlakətlər, xüsusilə də zəlzələlər, yanğınlar, daşqınlar varsa orada Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrin problemlərin həlli üçün gücü və fəal müdaxiləsi açıq şəkildə hiss olunur. İqtisadi, siyasi, hərbi güc balansı baxımından da Türk Dövlətləri Təşkilatı böyük üstünlüklərə malikdir. Bu baxımdan əksər siyasi şərhçilərin, eləcə də türkdilli xalqlarının çağırışlarına və istəklərinə əsasən Türk Dövlətləri Təşkilatının hərbi blokunun yaradılmasına zərurət var. Bu zərurəti şərtləndirən əsas amillərdən biri dünyada artan, zorakılıqların, bəzi dövlətlərin digər ölkələrə güc nümayiş etdirməsi, daxili qarşıdurmalar və digər səbəblərdirsə, digər amil isə hər an özlərini böyük güc hesab edən qüvvələrin Türk Dövlətləri Təşkilatının hansısa birinin ərazisinə hərbi müdaxilə etməsi təhlükəsidir. Belə məqamda Türk Dövlətləri Təşkilatının yaranacaq hərbi bloku sərt və təsirli tədbirlər görə bilər. Digər tərəfdən isə Türk Dövlətləri Təşkilatının hərbi bloku NATO və KTMT-dən fərqli olaraq ədalətli mövqe sərgiləyərək dünyada sülhün və təhlükəsizliyin təmin olunmasına özünün prinsipial töhfələrini verər. Təbii ki, bu da Türk Dövlətləri Təşkilatının hərbi blokuna inam və etimadı artırar, nüfuzunun daha da artmasına imkanlar yaradar. Hərbi blokun yaranması türk dövlətlərinin, xalqlarının rifahının və təhlükəsizliyinin təmin olunmasına da misilsiz zənginlik qatar.

Əminliklə qeyd etmək olar ki, Türk Dövlətləri Təşkilatları arasında hərbi blokun yaradılmasına hər hansı əngəl yoxdur. Sadəcə hələ ki, üzv dövlətlər gözləmə mövqeyindədir. Azərbaycan tərəfi isə məsələ ilə bağlı açıq mövqe ifadə edir. Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilən Zirvə görüşündə Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov dövlətlərimiz arasında hərbi və müdafiə sahəsində əməkdaşlığın artırılmasının zəruriliyi ilə bağlı mövqe ortaya qoydu və fikirlər səsləndirdi. Bu isə bir daha onu təsdiq edir ki, Azərbaycan türk dünyasının təhlükəsizliyinin təmin edilməsində ciddi şəkildə maraqlıdır və bunun üçün hər cür dəstəyi göstərməyə hazırdır.

## Hərbi blokun yaradılmasına maneə ola biləcək səbəblər varmı?

Hazırda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə Türk Dövlətləri Təşkilatına üzvləridir. Özbəkistan 14 sentyabr 2019-cu ildə quruma üzv olub. 2018-ci ilin sonlarından bu yana Macarıstan müşahidəçi dövlətdir və yaxın zamanda Türk Şurasına tam hüquqlu üzv olacağı gözlənilir. Beynəlxalq status daşıyan Türk Dövlətləri Təşkilatı hərbi, siyasi blok deyil. Bunun üçün hələ ki, prinsipial addımların atılması da gözlənilmir. Niyə, səbəbi nədir, Türk Dövlətləri Təşkilatının hərbi blokunun yaradılmasına nə mane olur? Bu kimi suallara təbii ki, üzv dövlətlər cavab verə bilər. Yalnız Azərbaycan məsələ ilə bağlı istəklərini ifadə edir.

Ehtimal olunur ki, Qazaxıstan, Qırğızıstan və Özbəkistan hərbi blok hesab olunan da KTMT-nin üzvləridir. Sözügedən dövlətlərin KTMT-də ola-ola Türk Dövlətləri Təşkilatının yaradılması arzuedilən hərbi blokunda olmaları mümkünsüz görünür. Qazaxıstan, Qırğızıstan və Özbəkistan KTMT-dən çıxmaqla Türk Şurasının hərbi blokunda yer ala bilərlər. Təbii ki, belə bir hal baş versə, bu Rusiya kimi terror yuvası hesab oluna vəhşi dövlətin maraqlarına toxunmuş olar. Dərhal hansısa təxribatlar törətməklə sözügedən dövlətlərin daxilində ciddi problemlər yarada bilər. Nəzərə almaq lazımdır ki, bir qədər əvvəl Yaponiyanın baş naziri Siqeru İsiba Asiyada yeni hərbi blokun yaradılmasının vacibliyini bildirib. Qeyd edib ki, yaradılacaq yeni hərbi blok NATO-ya bənzəri ola bilər. Lakin bir sıra ölkələr, xüsusilə də Hindistan və Rusiya mənfi münasibət bildiriblər. Rusiyanın



xarici işlər naziri Sergey Lavrov bildirib ki, Asiyada hərbi blokların yaradılması ilə bağlı istənilən ideya özündə qarşıdurma riski daşıyır və bu, qaynar fazaya çevrilə bilər. Əslində, Rusiyanın narahatçılığı başa düşələndir. Yaponiya hələdə hazırda rusiyanın ərasi olan 4 adaya qarşı iddialar irəli sürü və Yaponiya baş naziri Siqeru İsiba 4 adanın geri qaytarılması ilə bağlı Rusiya ilə danışıqlar apardıqlarını bəyan edib.

Belə iddialar Rusiyada ciddi narahatçılıqlar yaradır. Rəsmi Moskva hesab edir ki, Asiya bölgəsində yeni hərbi blok yaranarsa, bu onlar üçün ciddi problemlərə yol aça bilər. Ən azı Yaponiya arxasındakı güclərə arxalanaraq 4 adanın qaytarılması ilə bağlı Rusiya ilə təhdid dilində danışa, hətta bir məqamda hərbi gücdən istifadə edə bilər. Bu isə Rusiya üçün arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Ona görə də, Rusiya sərhədləri yaxınlığında Türk Dövlətləri Təşkilatının hərbi blokun yardılmaması üçün hər cür vasitə və üsullardan istifadə edə bilər. Ancaq nəzərə almaq lazımdır ki, artıq dünyamız dəyişib, Türkiyə və Azərbaycan kimi yeni güc mərkəzləri, aparıcı dövlətlər yaranıb. İndi ötən əsrin 90-cı illəri də deyil, bu gün güclü və qüdrətli türk dövlətləri mövcuddur.

## Dünyada hərbi güc balansı dəyişib

Bu gün dünyamızda baş verən siyasi, hərbi proseslər onu təsdiq edir ki, artıq beynəlxalq aləmdə güc balansı dəyişib. Misal üçün Rusiyanı, Hindistanı və İsraili misal olaraq göstərmək olar. Bu dövlətlər son illərə qədər böyük hərbi, siyasi güc mərkəzləri hesab olunurdular. Bu gün isə zəif dövlətlər sırasında yer alıblar. İsrail 2023-cü ilin oktyabrın 7-dən bu günə qədər adi silahlarla silahlanmış HƏMAS-a güc gələ bilmir. Əksinə, zərbələr görür və böyük itkilərə məruz qalır. İsrail açıq döyüş meydanında sadə fələstinli döyüşçülərə güc gələ bilmədiyindən qisasını fələstinli uşaqları, qocaları, qadınları öldürməklə almağa çalışır. Artıq İsrailin ABŞ-dan aldığı dağıdıcı gücə malik silahlar, raketlər, dronlar, hərbi təyarələrlə 68 min mülki fələstinlini qətlə yetiriblər. Bir sıra ölkələrin, o cümlədən də BMT-nin İnsan Hüquqlarının Müdafiə Komitəsi ardıcıl 3 –dəfə İsrailin Qəzzada genosid törətməsi barədə qətnamə qəbul edib. Beynəlxalq hərbi tribunal İsrail Baş naziri Netenyahunun və onun komandasının həbs edilərək, ədalət məhkəməsinə verilməsi barədə qərar çıxarıb. İsrail isə dayanmaq bilmir. Hər gün Qəzzadakı xəstəxanaları, qaçqın düşərgələrini hədəfə almaqla HAMAS-a zərər verməyə ümid edir. Ancaq uduzacağı şübhəsizdir. Çünki çox zəif və gücsüzdür. Hindistanda iddialarının əksi olaraq məğlubiyyətə məhkumdur. Bu yaxınlarda Pakistanla savaşda rüsvayçı məğlubiyyətlə üzləşdi. Nəticədə ağ bayraq qaldırmağa məcbur oldu. Eyni acınacaqlı məğlubiyyəti Rusiyada yaşamaqdadır. Artıq 4 ilə yaxındır ki, özündən qat-qat zəif hesab etdiyi Ukraynaya güc nümayiş etdirə və məkrli planlarını reallaşdıra bilmir. Zəifliyini ört-basdır etmək üçün Rusiya Ukraynanın dinc sakinlərini hədəfə alır, öldürür və yaralayır, şəhəri, kəndləri xarabazarlıqlara çevirir. Ukrayna isə böyük hərbi uğurlar əldə etməkdədir. İlkin dövrdə işğal edilən ərazilərinin böyük hissəsini azad etməyə nail olan Ukrayna Rusiyanın ərazilərinə də ciddi zərbələr endirməkdədir. Bunun nəticəsi olaraq Rusiya əhalisi kütləvi şəkildə ölkədən qaçırlar. Hesablamaya görə, müharibə başlayandan 6 milyon 850 min insan Rusiyanı tərk edib. Ölkədə aclıq və səfalət hökm sürür. Ukrayna silahlı qüvvələrinin Rusiyaya məxsus 14 neft emalı zavodundan 8-ni tam şəkildə sıradan çıxartması 4-nü isə qismən zədələməsi Rusiyada benzin çatışmazlığına gətirib çıxarıb. Vəziyyət belə davam edərsə, yaxın vaxtlarda Rusiyada ərzaq məhsullarının talonla verilməsinə başlanılacaq. Artıq bununla bağlı Rusiya Dövlət Dumasında təkliflər də səslənir.

Müsbət və qürurverici hal ondan ibarətdir ki, Türk Dövlətləri Təşkilatına daxil olan ölkələri istənilən hədəfinə və məqsədinə çatmağı bacarır. Türkiyə on illər davam edən Suriya böhranını cəmi 5 günə həll etməyi bacardı. Azərbaycan 30 illik erməni işğalına son qoymaqla ərazi bütövlüyünü və suverenliyini təmin etdi. 44 günlük Vətən Müharibəsi zamanı Azərbaycan düşmənin məhv edilməsində möhtəşəm şəkildə qurub yaratdığı hərbi zavodlarda istehsal olunan hərbi texnikadan və silah–sursatdan istifadə etdi. Hərbi ekspertlərində gəldiyi qənaətə görə Azərbaycan istehsalı olan silah-sursat daha dəqiq və böyük dağıdıcı gücə malik silahlar olub. Bunun nəticəsi olaraq Azərbaycan qısa müddətdə Ermənistan ordusunu və onların yerlərdəki xarici terrorçu dəstələri tamamilə məhv etdi.

Qəbələdə 7 oktyabr 2025-ci ildə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə Prezident İlham Əliyevin çıxışı zamanı bu məsələyə toxunarkən bildirdi ki, 2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu: "Bununla da ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımız üzərində suverenliyi bərpa olundu. Bu tarixi nailiyyət yalnız Azərbaycanın milli iradəsinin və əzmkar mübarizəsinin təntənəsi deyil, eyni zamanda, bölgədə ədalətin, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfədir. İki ay əvvəl Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Vaşinqton Zirvəsi çərçivəsində, eyni zamanda, ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırıldı".

## Birlik və bir-birinə inam, etimad Türk Dövlətləri Təşkilatının hərbi gücünü artırır

Tam qətiyyətlə demək olar ki, Azərbaycanın müdafiə sənayesi əhəmiyyətli dərəcədə inkişaf edib. Fire Power nəşriyyatının məlumatına görə, Azərbaycan hərbi gücünə və silah istehsalına görə 145 ölkə arasında 59-cu, ABŞ-nin U.S. News & World Report nəşrinin təqdim etdiyi statistikaya əsasən isə dünya sıralamasında 29-cu yerdədir. Bu, Azərbaycan üçün əhəmiyyətli bir göstəricidir. Bu göstəricilər yalnız xarici hərbi əməkdaşlıqların deyil, həm də istehsal edilən yerli silahların nəticəsidir. Belə ki, ölkəmizdə "TR-107", "TRB-107", "Şimşək" iri kalibrli snayper pulemyotu, "Gürzə" hərbi maşını, "İstiqlal-14,5" anti-materiya tüfəngi və 2024-cü ildə "ADEX-2024" Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilən "Turan-1" silahları istehsal edilir. Şərti adı "Turan 1" olan silah ilk dəfə "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilib. Silah yerli mühəndislər tərəfindən hazırlanıb və 2024-cü ildə istehsal olunub. Çəkisi 3 kiloqram 600 qram olan silahın vuruş məsafəsi 1000 metr, daraq tutumu 30 gülləlikdir. Müasir sistem orijinal standartlara uyğun olaraq hazırlanıb və sərgidə ilk dəfə nümayiş olunur. Silah sınaq testlərindən keçib, lakin hələ istifadə olunmayıb.

Dost, qardaş ölkə olan Türkiyə silah istehsalına və dünyada güc göstəricisinə görə, aparıcı dövlətlərdəndir. Hərbi baxımdan Türkiyə dünyanın 8-ci ən güclü ölkəsidir. NATO-da ABŞ-dan sonra ən güclü orduya malik olan ölkə də Türkiyədir. Türkiyənin Baykar, TUSAŞ (Türk Havacılık ve Uzay Sanayii), Vestel və STM (Savunma Teknolojileri Mühendislik ve Ticaret), müxtəlif tipli dronlar (PUA) istehsal edir. Baykar tərəfindən istehsal edilən Bayraktar TB2 pilotsuz təyyarəsi raket daşıya bilən ən kiçik pilotsuz döyüş təyyarələrindən biri kimi tanınır və hava nəzarəti, kəşfiyyat və hədəfə zərbə endirmək üçün istifadə olunur. Baykar tərəfindən dünyanın 20-yə yaxın ölkəsinə 2, 5 milyard dollar dəyərində Bayraktar TB2 satılıb. Alıcıların sayının artması onu deməyə əsas veri ki, Türkiyənin istehsal etdiyi silahlar daha keyfiyyətli və dəqiqdir. Bir sözlə, Türk dünyası yeni uğurları və nailiyyətləri ilə dünya miqyasında böyük nüfuz sahibi olmaqla yanaşı növbəti tarixini yazır. Bu tarixin yeni bir səhifəsi isə hərbi blokun yaradılması olacaq. Ümid edir, həm də əminik ki, çox yaxın zamanlarda Türk Dövlətləri Təşkilatına üzv olan dövlət siyasi iradə ortaya qoymaqla təşkilatın hərbi blokunun yaradılmasına qərar verəcəklər.

***İLHAM ƏLİYEV***

# TDT-nin Qəbələ Zirvəsi

## Türk Birliyində hərbi əməkdaşlıq prioritet olaraq qalır

**_Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının zirvə toplantısının yekunları üzrə imzalanmış "Qəbələ Bəyannaməsi" birliyin iqtisadi və mədəni inkişafa sadiqliyini üzə çıxardı, eyni zamanda təşkilatın üzvləri arasında fikir ayrılıqlarının olmadığı da bir daha təsdiqləndi. Gündəliyin təhlükəsizlik məsələləri, hərbi təlimlərə çağırışlar və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın təklifi ilə hətta Suriyanı da əhatə edə biləcək "TDT+" təşəbbüsü kimi genişlənməsi ekspertlər tərəfindən üzv dövlətlərin xarici siyasətində ortaq məxrəcləri müəyyənləşməsi kimi qəbul edildi._**

Azərbaycan Prezidenti İlham Əliyev TDT-yə sədrliyə başlayarkən təşkilatın birləşdirici gücünü vurğulayıb: "Bizim ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir". O, bu konsepsiyanı daha da inkişaf etdirərək, 2026-cı ildə TDT ölkələrinin birgə hərbi təlimlərinin Azərbaycanda keçirilməsi təşəbbüsünü irəli sürüb. Ölkənin hazır olduğunu nümayiş etdirmək üçün İlham Əliyev mühüm təcrübəni, o cümlədən son bir ildə Türkiyə ilə keçirilən 25-dən çox ikitərəfli və çoxmillətli hərbi təlimləri misal çəkib. Azərbaycan Prezidentinin təklifi TDT-nin üzv dövlətləri tərəfindən razılıqla qarşılanıb. Görüşlər zamanı əlbəttə, hər bir lider öz milli və dövlət maraqlarına uyğun olaraq təkliflərini də irəli sürürdü. Bu arada, türk ölkələrindən kənarda əməkdaşlığın genişləndirilməsinə yönəlmiş "TDT+" təşəbbüsü yeni tərəfdaşların cəlb edilməsi mexanizmi kimi müsbət qarşılanıb.

Məsələn, Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Kibertəhlükəsizlik Şurasının və Rəqəmsal İnnovasiya Mərkəzinin yaradılmasını təklif edib. O, həmçinin TDT çərçivəsində iri ticarət, iqtisadi və logistika layihələrinin inkişafının vacibliyini vurğulayıb və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (CICMEA) türk regionunda sabitliyin, təhlükəsizliyin və sülhün möhkəmləndirilməsində müstəsna rolunu və potensialını yüksək qiymətləndirib.

Astana TDT-nin hərbi-siyasi perspektivləri və ya bütün türk xalqları üçün ortaq əlifbanın tətbiqi ideyasını dəstəkləyib. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan xüsusilə "türk dili üçün böyük dil modeli"nin yaradılmasının sürətləndirilməsinin zəruriliyini bəyan edib. Tokayev Qazaxıstanın xarici geosiyasi oyunlara və iyerarxik münasibətlərə qarışmaqdan çəkinməklə iqtisadi, humanitar və mədəni əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyib.

Özbəkistan prezidenti Şavkat Mirziyoyev Yaxın Şərq, Ukrayna, Əfqanıstandakı vəziyyət və "İranın nüvə proqramı ilə bağlı problemlər"lə bağlı ciddi narahatlığını bildirib. O, "aparıcı qlobal güclərin ədalətli dünya nizamının yaradılması, qarşılıqlı etimadın və təhlükəsizliyin təmin edilməsi üzrə yeni planlarını" alqışlayıb və regional və qlobal təhlükəsizlik məsələlərinə vahid yanaşmaların işlənib hazırlanması məqsədilə Özbəkistanın ərazi icmalarının xarici işlər nazirləri və kəşfiyyat xidmətləri rəhbərlərinin ilk birgə iclasının Səmərqənddə keçirilməsini təklif edib. Mirziyoyev həmçinin Türk Sənaye Alyansının yaradılması və təşkilat ölkələri arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi təşəbbüsü ilə çıxış edərək, Orta Dəhlizin tikilməkdə olan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu və perspektivli Trans-Əfqan Dəhlizinin birləşdirilməsinin regionda "çoxsahəli strateji avtomobil yolları sistemi" yaradacağını vurğulayıb.

Türkmənistanın Xalq Məsləhətinin rəhbəri Qurbanqulu Berdiməhəmmədovun Mərkəzi Asiyanın digər üç türk ölkəsinə - Qazaxıstan, Qırğızıstan və Özbəkistana aprel səfəri çox diqqətəlayiq və nümayişkaranə olub. Üstəlik, səfərlər bu ölkələrin paytaxtlarına deyil, türk dünyasının müqəddəs yerləri olan Türküstana, Səmərqəndə və Qırğızıstanın mənəvi mərkəzi olan Çingiz Aytmatovun adını daşıyan Ruh-Ordoya baş tutub. Məhz bu, türkün ruhunu, dilini və tarixini bütün rəngarəngliyi ilə kimin daşıdığını, türk siyasətinin zəbt etdiyi, türkün hər şeyini türkcəsi ilə əvəz etməyə cəhd edən həmin türkün doğuş haqqının nümayişi idi. Maraqlıdır ki, Qurbanqulu Berdiməhəmmədovun səfəri Paris səfəri ilə davam edib və orada prezident Makron tərəfindən qəbul edilib.



TDT üzvlərinin birlik daxilində tarif siyasətini birləşdirmək niyyətləri də eyni dərəcədə alqışlanmalıdır. Baxmayaraq ki, bəzi TDT üzvləri Aİİ-nin üzvüdürlər və burada tarif siyasəti əsasən qurulub və qüvvədədir, amma bununla bağlı bir çox sualları var. Təəssürat yaranır ki, zirvədən zirvəyə qədər TDT-də layihələr və sxemlər getdikcə daha çox qlobal xarakter almaqdadır, eyni zamanda ən ciddi ziddiyyətlər belə türk həmrəyliyi ilə aradan qaldırılır.

Birliyə nail olmaq üçün TDT-də təkcə iqtisadiyyata diqqət yetirmək yox, həm də hərbi potensialı fəal şəkildə inkişaf etdirmək lazımdır. Ona görə də təşkilat inadla özünü ilk növbədə türk dövlətlərinin hərbi ittifaqına, yalnız bundan sonra başqa hər şeyə çevirəcək. Bu kontekstdə Prezident İlham Əliyevin 2026-cı ildə birgə hərbi təlimlər keçirmək təklifi də təsadüfi deyil. Qazaxıstan və Özbəkistan üçün çoxvektorlu xarici siyasət prioritet olaraq qalır və onların liderləri çətin ki, bununla bağlı güzəştə getsinlər. Lakin tarixi təcrübənin göstərdiyi kimi, geosiyasi qırılma xətləri olan regionlarda həddindən artıq çoxvektorlu siyasət yeritmək daxili sabitliyin pozulması riskini daşıya bilər. Beləliklə, "orta səviyyəli" dövlətlər istər-istəməz formalaşmaqda olan güc mərkəzlərinə nisbətən daha aydın mövqeləşdirmə ehtiyacı ilə üzləşirlər.

### TDT dərinləşir və genişlənir

Türk Dövlətləri Təşkilatı (TDT) sırf mədəni müttəfiqlikdən "strateji həmrəylik platforması"na çevrilib. Bunu oktyabrın 7-də Azərbaycanda keçirilən TDT sammitində çıxış edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. İştirakçılar ticarət və investisiyalardan tutmuş kibertəhlükəsizliyə qədər müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsi barədə razılığa gəliblər. Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanı üzv, habelə Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikasını müşahidəçi kimi birləşdirən Türk Dövlətləri Təşkilatının (TDT) toplantısı kifayət qədər təmtəraqlı keçib. Liderlər nümayiş etdirməyə çalışıblar ki, TDT tam hüquqlu beynəlxalq oyunçuya çevrilib.

"Daxili siyasi və iqtisadi sabitlik, mühüm geostrateji mövqe, müsbət demoqrafik vəziyyət və gənc əhali, nəqliyyat və logistika sahəsində əhəmiyyətli imkanlar, təbii ehtiyatlar, artan hərbi və hərbi-texniki potensial TDT-ni qlobal miqyasda mühüm oyunçuya çevirir", - Azərbaycan Prezidenti İlham Əliyev sammitdə qonaqları salamlayaraq bildirib.

Digər iştirakçılar da TDT-nin əhəmiyyətindən və "türk xalqlarının əbədi birliyi"ndən danışıblar. Məsələn, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, nisbətən qısa müddət ərzində Türkiyə özünün ailə şurası hesab etdiyi bu unikal təşkilat mühüm irəliləyiş əldə edib. TDT qlobal oyunçuya çevrilir, beynəlxalq aləmdə daha çox tanınır, təsir dairəsini genişləndirir və əməkdaşlığı dərinləşdirir.

Bu uğuru möhkəmləndirmək üçün sammit iştirakçıları diqqəti digər ölkələr və beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişafına yönəltmək qərarına gəliblər. Məqsəd TDT-ni Türk Dövlətləri Təşkilatına çevirmək və bununla da "beynəlxalq oyunçu kimi mövqeyini gücləndirmək"dir. Bu "artı"ya kim çevriləcək, onu görmək qalır. Ərdoğan TDT-ni indiki formada "strateji həmrəylik platforması" kimi xarakterizə edib. Təsadüfi deyil ki, Zirvə görüşündən sonra qəbul edilmiş Qəbələ Bəyannaməsi 14 səhifədən və 121 bənddən ibarətdir. Tərəflər iqtisadiyyat və ticarət və investisiya əməkdaşlığından tutmuş (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafına diqqət yetirməklə) sərhəd təhlükəsizliyi və kibertəhlükəsizliyə qədər (Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev "sərhəd tanımayan yeni təhlükə" ilə mübarizə üçün Kibertəhlükəsizlik Şurasının yaradılmasını təklif edib) geniş spektrdə əməkdaşlığı müzakirə ediblər.

Digər məsələlərlə yanaşı, liderlər müdafiə sənayesi, energetika və kommunikasiyalar, eləcə də mühüm faydalı qazıntıların çıxarılması sahəsində əməkdaşlığa başlamaq barədə razılığa gəliblər. Onlar həmçinin xarici siyasət məsələlərini - Qəzza zolağında, Suriyada və Cənubi Qafqazda baş verənləri müzakirə ediblər. Prezidentlər xarici işlər nazirlərinə aktual məsələlərlə bağlı mövqelərini əlaqələndirmək üçün daha tez-tez görüşməyi tapşırıblar.

**_V.VƏLİYEV_**

# İtkin düşmüş şəxslərin probleminin həllində beynəlxalq əməkdaşlıq

## Prezident İlham Əliyev: "Azərbaycan dövləti itkin düşmüş şəxslər probleminə beynəlxalq birliyin diqqətinin artırılması üçün böyük səy göstərir"




"İtkin düşmüş şəxslər məsələsi dünyanı narahat edən mühüm bəşəri problemlərdən biridir. İllər keçdikcə bu problem aktuallığını itirməmiş, əksinə, daha kəskin xarakter almışdır". Bu fikirləri Prezident İlham Əliyevin "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində yer alıb. Dövlət başçımız qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatının məlumatına görə son iyirmi il ərzində itkin düşənlərin sayında 2024-cü ildə ən yüksək artım qeydə alınmış, həmin il münaqişə bölgələrində 57 minə yaxın insan itkin düşmüşdür. Bu, silahlı münaqişələr dövründə beynəlxalq hüquq normalarına məhəl qoyulmamasının acı nəticəsidir. Artıq üçüncü ildir ki, bu tədbir keçirilir. Prezident İlham Əliyev konfransın keçirilməsinə dəstək göstərib və itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması məsələsində dövlətimizin başçısı qətiyyətli və prinsipial mövqeyini hər zaman sərgiləmişdi.

Hazırda Dövlət Komissiyasında 3990 nəfər itkin şəxs kimi qeydiyyata alınmış, bu vaxtadək işğaldan azad edilmiş ərazilərdə aparılmış qazıntılar zamanı aşkarlanmış 29 kütləvi məzarlıqdan 218 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqlarının müəyyən olunaraq ekshumasiya edilib. İtkin düşmüş şəxslərdən artıq 187 nəfər şəxsiyyətin eyniləşdirilərək ailələrinə təhvil verilib, habelə axtarış-qazıntı işləri nəticəsində Ağdərə rayonunun Ballıqaya kəndi ərazisində növbəti kütləvi məzarlıq aşkarlanıbdır.

### "CİNAYƏTİN İZLƏRİNİN İTİRİLMƏSİ BEYNƏLXALQ HÜQUQ NORMALARININ CİDDİ POZUNTUSUDUR"

İtkin düşmüş şəxslərlə bağlı məsələ ölkəmizin də üzləşdiyi ən ağır problemlərdən biri kimi qalmaqdadır. Ermənistanın əsassız ərazi iddiaları ilə Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsi zamanı çoxsaylı soydaşımız itkin düşüb. Həmin şəxslərin taleyi bu günədək məlum deyil, onların ailələri öz əzizlərinin taleyinin müəyyənləşdirməsini böyük həsrətlə gözləyirlər. Azərbaycan da bu məsələdən əziyyət çəkən dövlətlərdəndir. "Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə başlamış və 30 ildən artıq davam etmiş müharibənin doğurduğu humanitar faciələrdən biri də içərisində uşaqlar, qadınlar və ahılların olduğu 4000-dək azərbaycanlının itkin düşməsidir. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra həmin ərazilərdə 29 kütləvi məzarlıq aşkar edilmişdir. Məzarlıqlardan tapılmış meyitlərin qalıqlarının ekspertizası qətlə yetirilmiş azərbaycanlıların dəhşətli işgəncələrə məruz qoyulduqlarını sübut edir. Bu, çox ağır mənzərədir. İnsanların kütləvi şəkildə, işgəncə ilə öldürülməsi, qeyri-insani qaydada basdırılması və cinayətin izlərinin itirilməsi beynəlxalq hüquq normalarının ciddi pozuntusudur", - fikirləri Prezidentin müraciətində yer alıb. Müharibədən sonrakı dövrdə ilk kütləvi məzarlıqlar 2021-ci ilin fevral ayının 17-də Şuşa rayonunun Daşaltı qəsəbəsində aşkarlanmışdır. Orada aşkarlanmış iki kütləvi məzarlıqdan 28 nəfərə aid meyit qalığı ekshumasiya edilərək götürülmüşdür. Onu da qeyd edim ki, Daşaltı qəsəbəsində aşkarlanmış meyit qalıqları üzrə 14 itkin şəhidin eyniləşdirilməsi mümkün olmuşdur. Həmin şəxslər 26 yanvar 1992-ci il tarixdə Daşaltı qəsəbəsi uğrunda döyüşlərdə şəhid olmuş Azərbaycan hərbçiləridir.

Sonrakı dövrdə isə işğaldan azad olunmuş ərazilərimizdə daha 29 kütləvi məzarlıq aşkar edilmiş, qazıntı işləri həyata keçirilmişdir. Bütövlükdə aşkar edilmiş 29 kütləvi məzarlıqdan Birinci Qarabağ müharibəsində itkin düşmüş 218 şəxsə aid olduğu ehtimal olunan meyit qalıqları aşkarlanaraq götürülmüşdür. Həmin meyit qalıqları üzrə 60 itkin-şəhidin şəxsiyyəti eyniləşdirilərək ailələrinə təhvil verilmişdir.

Vətən müharibəsində əldə edilmiş böyük zəfərdən sonra Birinci Qarabağ müharibəsində vətəndaşlarımızın itkindüşmə faktı ilə bağlı Dövlət Komissiyasına müraciətlərin sayı artmışdı. Bu müraciətlər eyni zamanda Xocalı soyqırımı zamanı yaxınları itkin düşmüş şəxslər tərəfindən də edilir. 2024-cü ildə edilmiş müraciətlərin araşdırılması nəticəsində daha 13 vətəndaşımızın Xocalı soyqırımı zamanı itkin düşməsi faktı müəyyən edilmiş və onlar müvafiq qaydada itkin düşmüş şəxs kimi qeydiyyata alınmışlar. Hazırda Xocalı soyqırımı zamanı 210 nəfər itkin düşmüş şəxs kimi Dövlət Komissiyasının qeydiyyatındadır. Onlardan 168 nəfəri mülki, 42 nəfəri hərbçilərdir. Mülki şəxslərdən 38 nəfər uşaq (23 oğlan, 15 qız), 57 nəfər qadın (15 nəfəri ahıl yaşlı qadın), 30 nəfər qocadır. İtkin düşmüş 210 nəfərdən 95 nəfərinin işğal zamanı əsir-girov götürülməsi və saxlanmasına dair şahid ifadələri var.

### "MÜHARİBƏ DÖVRÜNDƏ İTKİN DÜŞMÜŞ 187 NƏFƏRİN ŞƏXSİYYƏTİ EYNİLƏŞDİRİLMİŞ VƏ ONLAR DƏFN EDİLMİŞLƏR"

Əldə edilmiş son məlumatlara əsasən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş şəxslər sayı 766 nəfəri mülki şəxs, 3202 nəfəri hərbçi olmaqla, ümumilikdə 3968 nəfərdir ki, mülki şəxslərdən 69-u uşaq, 283-ü qadın, 334-ü isə ahıl şəxsdir. Müraciətdə vurğulandığı kimi, Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi daim qarşımızda duran önəmli vəzifələrdən olmuşdur: "1993-cü ildən Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası fəaliyyət göstərir. Bu günə qədər müharibə dövründə itkin düşmüş 187 nəfərin şəxsiyyəti eyniləşdirilmiş və onlar dəfn edilmişlər".

Məlumdur ki, 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və həyata keçirdiyi işğal faktı ilə bağlı ölkəmiz silahlı münaqişəyə cəlb edilmiş və bunun da nəticəsində genişmiqyaslı humanitar fəlakətlə üzləşmişdir. Münaqişə davam etdiyi müddətdə mülki azərbaycanlı əhali kütləvi şəkildə qətlə yetirilmiş, əsir-girov götürüldükdən sonra qeyri-insani şəkildə saxlanılaraq dəhşətli işgəncələrə və məhrumiyyətlərə, humanizm prinsiplərindən kənar rəftara məruz qoyulmuşdur. Bütün bu hallar xeyli sayda soydaşımızın itkin düşməsinə və taleyinin bu günə kimi qeyri- müəyyən qalmasına səbəb olmuşdur.

Vurğulamaq yerinə düşər ki, Ermənistan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini yerinə yetirməyərək, kütləvi məzarlıqların dəqiq yerləri barədə məlumatları ölkəmizə təqdim etmir. Azad olunmuş ərazilərdəki kütləvi məzarlıqlarda tapılmış insan qalıqlarının eyniləşdirilməsi istiqamətində yalnız Azərbaycanın müvafiq dövlət qurumlarının gördüyü tədbirlər nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilir. Belə ki, Prezident İlham Əliyevin tapşırığı ilə aidiyyəti dövlət qurumları tərəfindən bu istiqamətdə əhəmiyyətli tədbirlər həyata keçirilib.

### "BMT BU SAHƏDƏ SƏYLƏRİNİ DAHA DA ARTIRMALIDIR"

8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində paraflanmış "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" layihəsinin 9-cu maddəsi itkin şəxslərin taleyinin müəyyən edilməsi sahəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsini nəzərdə tutur. Azərbaycanın və Ermənistanın aidiyyəti dövlət komissiyaları arasında son vaxtlarda mütəmadi əsasda davam edən təmasların, həmçinin müvafiq beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi bu işdə uğurların əldə olunmasına səbəb olacaqdır. "2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanması və sülh sazişinin paraflanması böyük tarixi hadisə olmaqla, Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin edilməsi üçün yeni imkanlar yaradır", - deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, sülh sazişinə münaqişə dövründə itkin düşmüş şəxslərlə bağlı xüsusi bir maddənin salınması məsələyə verdiyimiz önəmin təzahürüdür və sazişdə də təsbit olunduğu kimi bu şəxslərin taleyinə aydınlıq gətirilməsi tərəflər arasında barışıq və etimad mühitinin yaradılmasında əhəmiyyətli vasitədir: "Bu baxımdan, Ermənistan tərəfi azərbaycanlıların qətlə yetirilərək basdırıldığı digər kütləvi məzarlıqların yeri barədə Azərbaycan tərəfinə məlumat verməlidir. Azərbaycan dövləti itkin düşmüş şəxslər probleminə beynəlxalq birliyin diqqətinin artırılması üçün böyük səy göstərir".

Qeyd etdiyimiz kimi, artıq üçüncü dəfədir ki, Azərbaycan itkin düşmüş şəxslər mövzusuna həsr olunmuş beynəlxalq tədbirə ev sahibliyi edir. Azərbaycan itkin düşmüş şəxslərlə bağlı BMT Baş Assambleyasında qətnamələrin qəbul edilməsi üzrə 2002-ci ildən təşəbbüslərlə çıxış etməklə, dövlətləri və beynəlxalq təşkilatları bu istiqamətdə lazımi tədbirlər görməyə təşviq edir. "Zənnimcə, BMT bu sahədə səylərini daha da artırmalıdır", - deyən Azərbaycan Prezidenti onu da əminlikdə bildirib ki, bu konfrans çərçivəsində keçiriləcək müzakirələr itkin düşmüş şəxslər probleminin həlli istiqamətində beynəlxalq əməkdaşlığın güclənməsinə mühüm töhfə verəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# Ölən və öldürən məktəblilər



**Lalə Mehralı**

Əksəriyyət məktəbdə baş verən bu kimi zorakılıq hallarını əks etdirən videoları ürək ağrısı ilə seyr edir. Kimi günahlandıraq? Bu zorakılıq müəllim-şagird arasında da olur, müəllim-direktor arasında da, şagirdlə şagird arasında da. Axır illər trendə məktəbin gözətçiləri, texniki işçiləri də qoşulub. Övladına tərbiyə verməyən valideyn, tərbiyələnmək istəməyən uşaq, amalı, məqsədi təhsil yox rüşvət olan direktorlar, məktəbin inventarlarını satıb yeyən təsərrüfat müdirləri, məktəbdə biznes quran texniki işçilər, dərs cədvəli satan müavinlər, tərbiyəsiz uşaq əlində naçar qalan müəllimlər, döyülən yaxud döyən şagirdlər, öldürən və ölən uşaqlar, bütün bunlara gözünü yumub, qulağını tıxayan nazirlik - sizcə, hansı daha çox günahkardır?

Məktəblərdə ən böyük boşluq nədir, bilirsinizmi? Müəllim avtoritetinin yoxa çıxması. Müəllim kimi ali bir ünvanı sıxışdıra-sıxışdıra yazıq görkəmə saldılar. Müəllimi elə yazıqlaşdırdılar ki, uşağa söz deməyə risk etmir. Daha müəllim nə təhsil verir, nə təlim verir, nə də tərbiyə. İşi-gücü səhərdən-axşamacan lüzumsuz kağız-kuğuz işlərini bitirmək, jurnal yazmaq, summativ yoxlamaqdır. Başını qaldırıb sinifə baxa bilmir ki, nə baş verdiyini görsün. Onun bu halı ailəsindən tərbiyə, nəzarət görməyən şagirdlər üçün göydəndüşmə fürsətdir.

Biz Elgünün faciəsini hələ unutmamışıq, indi də Vaqifə məzar oldu Gəncə. Öldürən məktəbli, ölən məktəbli, ilahi, dəhşətə bir bax! Məktəblərdə özbaşınalıq baş alıb gedir. Şagirdlər məktəbə təsbehlə, bıçaqla gəlir. Kəpənək deyilən bıçaq növü ilə qısnama, hədələmə hərəkətləri etməyə meyilli olan nəsil yetişib. Onlar bıçaqla lovğalıq edirlər, qısnama zamanı hədə-qorxu gəlmək üçün istifadə edirlər. Məktəblilərin üzərindən dəfələrlə beşbarmaq deyilən təhlükəli alət aşkarlanıb. Şagirdlər müəllimin üzünə üfürür siqaretin tüstüsünü. Bütün səlahiyyətləri əlindən alınmış müəllim nə edəcək bu vəziyyətdə?

Uşaqlar saytlardan zorakılıq təbliğ edən oyunların simvolu olan silahları sifariş edirlər. Daha sonra sifariş edilən silahları məktəbə gətirib sinif yoldaşlarına paylayırlar. Məktəblər və məktəb rəhbərliyi zorakılıq nümayiş etdirən uşaqları asanlıqla müəyyən edə bilir. Bunun üçün sinif rəhbəri, məktəb psixoloqu, məktəblinin dostu var. Xüsusilə də məktəbdə çalışan psixoloqlara çox mühüm vəzifə düşür. Məktəblərdə təhsildən başqa hər şey var - bullinq, zorakılıq, qısnama, bıçaqlama, öldürmə. Məktəblərdə yalnız dərs yoxdur, elm yoxdur, təhsil yoxdur. Təhsil can çəkişir, nazirlik susub. Məktəblər, məktəblilər kriminal film qəhrəmanına çevrilib, nazirlik susur. Biz də susaq?!

# ABŞ-ın dövlət borcu: 37,5 trilyon dollar






ABŞ-ın dövlət borcu rekord həddədir və ölkənin hərbi potensialını sarsıdan risklər var. Borc bütün gözləntiləri üstələyərək 37,5 trilyon dollara çatıb. Ekspertin fikrincə, ABŞ İsrail və Ukraynaya hərbi xərclərə görə tələyə düşüb. ABŞ Maliyyə Nazirliyinin yeni hesabatında qeyd olunur ki, ümumi milli borc bir il ərzində 35,5 trilyon dollardan 37,5 trilyon dollara yüksəlib. ABŞ səhiyyə, infrastruktur və təhsil kimi mühüm sahələri görməzlikdən gəlməklə, hərbi xərclərin pis dövrünə düşüb. Ehtiyatlar tükənmək üzrədir. ABŞ artıq raket arsenalını artıra bilməyəcək.

Son həftələrdə bir neçə sızıntıdan sonra təsdiqlənən rəsmi məlumatlara görə, 37,5 trilyon dollarlıq rəqəm ABŞ tarixində federal hökumətin ən yüksək borcudur. Bu, dünya müharibələri və ya pandemiya kimi fövqəladə hallar zamanı baş verənləri nəzərə almasaq, görünməmiş bir artımdır. Bu gün ABŞ-ın borc ehtiyatı ölkənin ÜDM-nin 120%-ni ötür.

Ən maraqlısı odur ki, bu yüksək borc səviyyəsi gözləniləndən bir neçə il əvvəl əldə edilib. Əslində, COVID-19 pandemiyasının yaratdığı 2020-ci il iqtisadi tənəzzüldən əvvəl Konqresin Büdcə Ofisi yanvar ayı təxminində ümumi federal borcun 2030-cu maliyyə ilindən sonra yalnız 37 trilyon dolları keçəcəyini proqnozlaşdırmışdı.



Bu görünməmiş sürətlənmənin əsas katalizatoru ilkin sağlamlıq böhranı idi, çünki federal hökumət böyük dərəcədə yardıma arxalanırdı və iqtisadi ifliclə mübarizə aparmaq və sonrakı bərpanı dəstəkləmək üçün kütləvi iqtisadi stimul paketləri həyata keçirdi. Təxminən üç il davam edən böhran zamanı maliyyə vəsaitlərinin vurulmasından sonra ABŞ-ın borcu diqqətəlayiq sürətlə böyüməyə davam etdi. Buna ən varlılar üçün vergilərin azaldılması, hərbi xərclərin artması (İsrail, Ukrayna və digər ölkələrə yardım daxil olmaqla) və Çində olduğu kimi siyasi isteblişmentin xərcləri azaltmaq və inkişafa və innovasiyaya sərmayə qoymaq istəməməsi də daxil olmaqla amillərin birləşməsi səbəb olub.

Bununla belə, borcun artması təkcə həcm baxımından deyil, həm də onun həyəcanverici surətdə artım tempi baxımından əhəmiyyətli olmuşdur. 2024-cü ilin yanvarında 34 trilyon dollar, 2024-cü ilin iyulunda 35 trilyon dollar, həmin ilin noyabrında isə 36 trilyon dollar təşkil edib. Borc artımı əvvəlki dərəcələri xeyli üstələyən sabit sürətlənmə nümayiş etdirir.

Bundan əlavə, 10 il əvvəl təxminən yarısı böyük olan bu rəqəm ABŞ-ın mütləq ifadədə dünyada ən böyük xarici borcuna sahib olması və onun ümumi borcunun demək olar ki, bütün ölkələrin borcunu üstələməsi deməkdir. Bu baxımdan, G7 (Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya və Böyük Britaniya daxildir) ilə müqayisədə ABŞ borcunun həcmi sadəcə heyrətləndiricidir. Yaponiya ikinci yerdədir.

Ağ Evin mətbuat katibi Caroline Levitt, bağlanma zamanı hökumət işçilərinin işdən çıxarılmasını müdafiə edərək, ”37 trilyon dollar borcumuz olduğunu” və ”federal hökumətə daha çox pul daxil olmadığını” etiraf edib. ABŞ prezidenti Donald Trampın özü də sosial şəbəkədə ölkənin iqtisadi problemlərini etiraf edərək bu açıqlamanı təsdiqləyib. İki ay əvvəl ən varlı şəxslər üçün vergi endirimlərinin bərpasından sonra sürətlə artacağı gözlənilən ABŞ borcunun hazırkı trayektoriyası göstərir ki, borc artım tempi hazırda son 25 ildə orta göstəricidən iki dəfə çoxdur.

Bu proqnoz onu deməyə əsas verir ki, ölkə hərbi xərclər ucbatından yaranan amansız borc dövriyyəsinə düşüb. Eyni zamanda, Birləşmiş Ştatlar təkcə vətəndaşların həyatını yaxşılaşdırmaq üçün deyil, həm də iqtisadi artımı stimullaşdırmaq üçün mühüm əhəmiyyət kəsb edən səhiyyə, infrastruktur və təhsil kimi sektorlardan üz döndərir. Bu, ABŞ üçün həll olunmamış başqa bir problemdir.

Bu baxımdan, belə böyük borc yükü ilə bağlı ən təcili iqtisadi risklərdən biri faiz dərəcələrinə təzyiqin artmasıdır. Hökumət böyük məbləğdə borc götürdükdə kapital bazarlarında özəl sektorla rəqabət aparır, həm biznes, həm də fiziki şəxslər üçün kreditin qiymətini artırır, həmçinin ipotekadan tutmuş əsas mallara qədər hər şeyin qiymətini artırır.

Artan borc malların və kreditlərin maya dəyərinə təsirindən başqa, həm biznes sahiblərinə, həm də vətəndaşlara zərər vuraraq investisiyaya mənfi təsir göstərir. Borc özəl sektorun investisiyalarını azaldır, çünki onun investisiya etmək üçün daha az kapitalı var. Üstəlik, federal büdcə çərçivəsində borcun ödənilməsi prioritet məsələyə çevrilir, sosial ehtiyaclar və infrastruktur üçün xərcləri sıxışdırır və neqativ iqtisadi dövrü gücləndirir, çünki bu, məşğulluğa və istehlaka təsir edir və vergi gəlirlərinin daim artan hissəsini istehlak edir.

ABŞ-ın külli miqdarda borcu Amerikanın geosiyasi mövqeyinə və onun xaricdə hərbi güc nümayiş etdirmə qabiliyyətinə birbaşa və dərin təsir göstərir və bu, Vaşinqtonun yanlış siyasət yürütdüyünü təsdiqləyir. ABŞ-ın əsas geosiyasi aktivi dolların dünyanın əsas ehtiyat valyutası statusu, Xəzinə istiqrazlarının faktiki olaraq risksiz aktiv statusudur. Bununla belə, milli borcun nəzarətsiz artımı və borc tavanının artırılması ilə bağlı davam edən siyasi qeyri-sabitlik ABŞ-ın maliyyə sabitliyinə qlobal inamı sarsıdır.

Hipotetik defolt və ya borc böhranı təkcə xarici investorlara təsir etməyəcək, həm də ABŞ-ın maliyyə gücünü sarsıdacaq. Bu fonda Çin, Rusiya və Hindistan kimi böyük güclər qlobal ticarətin, xüsusən də qlobal sərvətin 40%-dən çoxunu təşkil edən BRİKS bloku daxilində de-dollarizasiyaya təkan verir.

Kütləvi ABŞ borcunun yığılmasının digər, daha nəzərəçarpacaq nəticəsi faiz ödənişlərinin sürətlə artmasıdır. Xəzinədarlıq borcun ödənilməsinə və faiz ödənişlərinə nə qədər çox vəsait xərcləməlidirsə, federal hökumətin hərbi texnologiyaların inkişafı və tətbiqini maliyyələşdirməsi üçün bir o qədər az pul lazım olacaq ki, bu da yaxın gələcəkdə ABŞ-ın hərbi potensialının zəifləməsinə gətirib çıxaracaq.

**V.VƏLİYEV**



MƏTANƏT

## Ağlayaq, yoxsa güləк?..

***Şəhərimizdəki işıqforsuz piyada keçidlərindən istifadə edənlərdən biri kimi son vaxtadək hər dəfə o xətlərin üzərində dəli bir ağlamaq keçirdi könlümdən. Soruşsaydınız ki, nə üçün? Deyərdim ki, sürücülərə- qayda-qanunlardan, cərimələrdən xəbərsiz sürücülərin gününə ağlamaq istəyirdim. Deyirdim, İlahi-pərvərdigar, bu sürücülər nə vaxt qayda-qanuna riayət edəcəklər. Bu sürücülər, əlbəttə, hamısı deyil, lakin əksəriyyəti bu maşınları nə vaxt adam kimi sürəcəklər.***

İndi isə elə o xətlərin üzərində gülməyə başlamışam. Desəniz ki, nəyə gülürsən? Deyərəm ki, özümə gülürəm. Nə üçün gülürəm, bilirsiniz, keçiddə xəttin üzərində dayanıb sürücüyə yol verdiyim üçün. Onun da məsuliyyətsizcəsinə məni gözlətməsinə gülürəm. Sürücü bir az kənardan görür ki, biz piyada keçidinin düz ortasındayıq, daha da sürətini artırır ki, qarşımızdan keçsin. Biz də qalırıq düz yolun ortasında ki, sürücü bəy, sürücü xanım keçsin, biz sonra yola davam edək.

Məktəbin qarşısı, ictimai yaşayış binasının önü və sair, hara olursa-olsun, bəzi sürücülər üçün heç əhəmiyyəti yoxdur, bizi gözlədib özləri keçəcəklər. Əslində biz onlardan qabağa düşə bilərik. Lakin bu sonuncu keçidimiz olar. Bizi asfalta elə yapışdırarlar ki, tikəmizi yerdən qoparmaq olmaz.

Biz hüquqlarımızı bilirik. Bilirik ki, piyada keçidinə yaxın avtomobili idarə edən sürəti azaltmalı, dayanıb piyadanın keçməsini gözləməlidir.

”Yol hərəkəti haqqında” Qanunun 54-cü maddəsinin I hissəsində də deyilir ki, əgər piyada keçidində nəqliyyat vasitələrinin hərəkəti nizamlayıcı tərəfindən və ya svetofor vasitəsilə nizamlanmırsa, sürücü keçidə yaxınlaşarkən sürəti lazımınca azaltmalıdır ki, yolu keçməyə başlamış piyadaları təhlükəyə məruz qoymasın. Əgər piyada keçidə daxil olmuşdursa və ya daxil olmaqdadırsa, sürücü nəqliyyat vasitəsini dayandırmalı və piyadaya yol verməlidir. Sürücünün piyadaya yol verməli olduğu xüsusi bir hal isə adı çəkilən qanunun 75-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulur: sağa və ya sola dönən sürücü dönəcəyi yolun hərəkət hissəsini keçməkdə olan piyadalara yol verməlidir. Bu normadan göründüyü kimi, yolayrıcında dönən sürücü hətta döndüyü yolda piyada keçidi olmasa da, piyadaya yol verməlidir.

”İnzibati Xətalar Məcəlləsi”nin 330-cu maddəsinə əsasən isə həm nizamlanmayan piyada keçidlərində, həm də sağa və sola dönən zaman piyadaya yol verilməməsi 50 manat cərimə olaraq qiymətləndirilir.

Bu qaydalardan və cərimələrdən piyadaların xəbərsiz olanı olar ki, sürücülər deyillər. Bəs belə isə nə üçün bilmək istəmirlər ki, kim kimi gözləməli, kim kimə yol verməlidir? Əksinə, piyada keçidinin ortasında maşını üzərimizə sürür, əsla dayanmaq fikirləri yoxdur. Və yaxud da ki, ”qarşıdan qəflətən adam çıxar” fikrini ağıllarına belə gətirmirlər?

Sürücülər bu barədə düşünmədikcə, biz hələ ağ xətt üzərində çox qara düşüncələrə dalacaq, ya ağlayacaq, ya da güləcəyik. Öz yolumuzda sürücülərə yol verməyimiz çox gülməli deyilmi?..

# "Hadrutun alınması Şuşa zəfərinin təməlini qoydu"

*HƏRBİ EKSPERT DANIŞDI*




"Vətən müharibəsində aparılan hər bir gün, hər bir döyüş tarixə yazılmış bir qəhrəmanlıq səhifəsidir. Çünki Azərbaycan Ordusu müasir prinsiplər əsasında inkişaf etdirilərək, ən yeni texnologiyalı silahlarla təchiz olundu və bu da ordunun taktiki yanaşmalarına mühüm təsir göstərdi. Azərbaycan Ordusu artıq köhnə, klassik üsullarla deyil, yeni



döyüş taktikaları ilə əməliyyatlar aparmağa başladı". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov deyib.

O bildirib ki, bu döyüşlərə qədər bütün yeni taktiki yanaşmalar müxtəlif hərbi təlimlərdə sınaqdan keçirilmişdi: "Yeni silahların tətbiqi və onların taktiki imkanlarının öyrənilməsi müharibə strategiyasına da yeni baxış gətirdi. Beynəlxalq hərbi ekspertlər də qeyd edirdilər ki, Azərbaycan Ordusu Vətən müharibəsində 21-ci əsrin tələblərinə cavab verən müharibə aparan ilk ordu kimi tarixə düşdü.

Hər bir yaşayış məntəqəsinin, hər bir ərazinin işğaldan azad olunması Azərbaycan üçün böyük əhəmiyyət daşıyırdı. Bu əməliyyatlar arasında Hadrutun azad olunması xüsusi yer tutur. Çünki Hadrut həm strateji mövqeyinə, həm də Şuşaya gedən yolun üzərində yerləşməsinə görə mühüm əhəmiyyətə malikdir. Boş yerə demirlər ki, "Hadrutun azad olunması Şuşaya açılan qapıdır." Azərbaycan Ordusu böyük qəhrəmanlıq göstərərək hər qarış torpağı addım-addım azad edirdi.

Bu prosesdə ordunun ruh yüksəkliyi daha da artır, düşmənin isə inamı tükənirdi. Hadrut uğrunda gedən döyüşlərdə Azərbaycan əsgəri həm peşəkarlığını, həm də yüksək döyüş hazırlığını nümayiş etdirdi.

Hər bir uğurlu əməliyyat öncədən qərargahlarda dəqiq planlaşdırılmışdı. Əgər bu planlamalar yüksək peşəkarlıqla aparılmasaydı, belə uğurların əldə olunması da mümkün olmazdı. Qərargahlarda hazırlanan planlar, xəritələr və risk təhlilləri sayəsində əsgərlərin qarşısında yalnız əməliyyat tapşırıqlarını icra etmək qalırdı. Azərbaycan əsgəri təlimlər zamanı döyüş aparmaq üsullarına mükəmməl şəkildə yiyələnmişdi və Hadrutun azad olunması ilə bunu bir daha sübut etdi. Hadrutun yerləşdiyi ərazi strateji baxımdan olduqca mühümdür - o, şimaldan və cənubdan yollarla əhatə olunub, yüksək mövqelərə nəzarət imkanı verir. Bu yüksəkliklərin ələ keçirilməsi növbəti əməliyyatların uğuru üçün ciddi zəmin yaratdı. Xüsusi təyinatlılarımız və peşəkar komandirlər Hadrutdan Şuşaya doğru irəliləyərək, cəbhənin digər hissələrində də düşməni sıxışdırmaqla onun qüvvələrini bölməyə məcbur etdilər. Beləliklə, Hadrut istiqamətində başlanan hücum Azərbaycan Ordusunun qələbə bayrağının Şuşada sancılması ilə nəticələndi.

Hadrutun azad olunması əsgərlərin ruh yüksəkliyini daha da artırdı. Prezident İlham Əliyevin də dediyi kimi, Azərbaycan əsgəri bir gün də irəliləmədən döyüşləri dayandırmırdı. Düşmənin isə psixoloji sabitliyi tamamilə pozulmuşdu. Hadrutun azad edilməsindən sonra düşmənin 15-20 minlik qüvvəsinin mühasirəyə düşmək təhlükəsi yaranmışdı. Erməni generallarının Paşinyana müraciətləri də bu vəziyyəti təsdiq edirdi. Prezident İlham Əliyev bütün mühüm qərarları şəxsən qəbul edir, döyüşlərin gedişini birbaşa mərkəzdən idarə edirdi. Hələ aprel döyüşlərindən sonra o bildirmişdi ki, Azərbaycan Ordusu işğalçı qüvvələri qısa müddətdə darmadağın etməyə qadirdir. Bu uzaqgörənlik və inam Vətən müharibəsində tam şəkildə özünü doğrultdu".

**Günel Fərzəliyeva**

# Paşinyan konstitusiya dəyişikliyi məsələsində "ilişib"...



"Ermənistan rəhbərliyinin konstitusiya məsələsində nümayiş etdirdiyi hazırkı mövqe tezliklə Sülh Müqaviləsinin imzalanacağı ehtimalını heçə endirir. Xüsusilə Nikol Paşinyanın komandasında Azərbaycana qarşı bir sıra ərazi iddiaları ilə "zəngin olan" hazırkı Ermənistan konstitusiyasında dəyişikliyə qarşı çıxanların hər gün artması bunu deməyə əsas verir."

Bu barədə SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, Donald Trampın şahidliyi ilə Vaşinqtonda mühüm razılaşmalara imza atan N.Paşinyan hazırda bu siyasi öhdəlikləri yerinə yetirmək həvəsində görünmür. M.Salahov, xüsusilə Ermənistan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Ani Badalyanın son açıqlamalarına diqqət çəkib. "Diqqət edin: Ermənistan XİN-in rəsmisi BMT Baş Assambleyasının 23-29 sentyabr tarixlərində Nyu-Yorkda keçirilən sessiyası ilə əlaqədar "PassBlue" nəşrinə verdiyi müsahibədə ciddi suallar yaradacaq fikirlər səsləndirib. A.Badalyan açıq şəkildə qeyd edir ki, Ermənistanda konstitusiya dəyişikliyinin nəzərdən keçirilməsi gündəmdə deyil. O qeyd edib ki, sülh sazişi layihəsində tərəflərin konstitusiyaları ilə bağlı heç bir müddəa yoxdur. Bu açıq-aşkar siyasi həyasızlıqdır. Çünki Azərbaycan Konstitusiyasında Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur. Konstitusiyamızın heç bir maddəsində, xırda bəndində belə Ermənistan əleyhinə bircə cümlə belə yazılmayıb.

Əvəzində Ermənistan konstitusiyasında Azərbaycan əleyhinə düşmənçilik və ərazi iddiaları nə qədər desən var. Bəyəm Ermənistan XİN rəsmisinin bunlardan xəbəri yoxdur? Əlbəttə var. Amma görünür ki, N.Paşinyanın ətrafındakılar həm də daxili siyasətə ünvanlanan siyasi oyunbazlıqla məşğuldurlar. Rəsmi İrəvanın konstitusiya dəyişikliyi üçün heç bir ciddi addım atmaması real sülhə olan ümidləri azaldır".



**Elçin Bayramlı**

# Ərzağın davamlı bahalaşmasını necə dayandırmaq olar?

***Beynəlxalq təşkilatların hesablamalarına görə, ərzaq böhranı gedikcə güclənəcək, ekoloji problemlər səbəbindən məhsul istehsalı azalacaq və minimal ərzaq təminatı ala bilməyən insanların sayı xeyli artacaq. Qlobal ərzaq qıtlığı problemi ən çox idxaldan asılılığı çox olan ölkələri təhdid edir. Azərbaycanda da taxıl başda olmaqla, zəruri ərzaq məhsullarının təxminən yarısı idxal hesabına formalaşır. Bu vəziyyətdə dünyada həmin məhsulların bahalaşması ölkəmizdə də bahalaşmaya səbəb olur. Son aylarda ərzaq məhsullarında qiymət artımları tendensiya halını alıb. İndi azad bazar dövrü olduğundan hökumət qiymətləri tənzimləyə bilməz və bu səbəbdən bunun qarşısını inzibati metodlarla almaq çətindir. Bu problemin həlli yolu ölkədə ərzaq istehsalının yüksəldilməsi və idxaldan asılılığın ləğv edilməsindən keçir.***

Bazar iqtisadiyyatının və qiymət liberallaşmasının özünün qanunauyğunluqları var. Hökumətin qiymətin artmasının qarşısını yox, qiymətin dəyişməsi prosesi zamanı əhalinin rifahını qorumaq, alıcılıq qabiliyyətini təmin etmək, yəni, heç olmasa, sosial müdafiəyə ehtiyacı olan təbəqələrin vəziyyətinin pisləşməsinin qarşısını almaq üçün tədbirlər görməsi vacibdir.

İnzibati üsullarla qiymət tənzimlənməsi o zaman mümkündür ki, ölkədə məhsul bolluğu var və qiymət artımı süni inhisarçılıq hesabına yaranıb. Amma qiymət artımlarının baş verməsi əsasən, xarici amillərin hesabına olduqda inzibati üsullarla tənzimləmək də mümkün olmur. Ölkədə istehsal olunan, amma əhalinin tələbatını ödəməyən məhsulları özəl şirkətlər və sahibkarlar idxal edirlər. Onlar da hər hansı malı baha aldıqda, baha da satmalıdırlar.

Kimisə hər hansı məhsulu xaricdən gətirib öz qiymətinə satmağa məcbur etmək olmaz. Bu vəziyyətdə dövlət aztəminatlı təbəqələr üçün güzəştli siyasət yürüdə bilər. Hökumət sosial və iqtisadi mexanizmlərlə bu prosesə təsir edə bilər, ancaq inzibati vasitələrlə heç nə etmək mümkün deyil.

Qiymət artımında xarici amillərin təsir payı böyük olsa da, daxili amillərin də təsiri olmamış deyil. Bunlardan bəzi istehsal və idxal sahələrində inhisarçılığı və yerli məhsulda qiymət artımını şərtləndirən stimullaşdırıcı tədbirləri göstərmək olar. Əgər ölkədə enerji daşıyıcılarının və suyun qiyməti bahalaşırsa, maya dəyərinin bundan asılı olduğu məhsulların qiymətinin artması təbiidir.

Qiymət artımında daha bir əsas amil də inhisarçılıqdır ki, nəticədə bazara süni təzyiqlər artır və mümkün ucuzlaşmanın da qarşısı alınır. Bahalaşma zamanı əhalinin alıcılıq qabiliyyəti getdikcə aşağı düşdüyündən, maya dəyəri baha başa gələn keyfiyyətli məhsulun əvəzinə bazara ucuz və keyfiyyətsiz, hətta saxta məhsullar çıxarılır.

Dünya bazarında bəzi məhsulların qiymətlərinin artması o demək deyil ki, bu ölkədə ucdantutma bütün məhsulların bahalaşmasına səbəb olmalıdır. Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma asan olur. Belə ölkələrdə əsas tələbat malları ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.

Məsələn, ABŞ və əksər Avropa ölkələrində, həmçinin, Rusiya və Türkiyədə dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun hətta bazar qiymətinə alınacağı haqda öncədən müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını, və anti-inhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar. Azərbaycanda da dövlət tərəfindən aqrar sektora güclü maliyyə dəstəyi verilir, milyardlarla manat subsidiya ayrılır, müxtəlif güzəştlər tətbiq olunur, dövlət proqramları həyata keçirilir. Bu sahədə müəyyən nailiyyətlər əldə olunub, lakin hələ də potensialımızdan xeyli aşağı göstəricilərə sahibik. Demək qəbul olunan dövlət proqramlarının icrası effektli aparılmayıb və bu məsələyə daha ciddi diqqət verilməlidir.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Aqrar sektorun konseptual inkişafı üçün ciddi bir proqrama ehtiyac duyulur. Buraya ərzaq təhlükəsizliyi də daxildir. Ərzaq təhlükəsizliyi həm də kənd təsərrüfatının inkişafı ilə bağlıdır. Kənd təsərrüfatı isə yeyinti sənayesi və yüngül sənayenin inkişafı üçün birbaşa mənbədir. Qarşıdan qlobal ekoloji problemlər (quraqlıq, su çatışmazlığı və s) və ərzaq qıtlığı gəlir. Belə bir şəraitdə aqrar sektorun inkişafı ən prioritet məsələyə çevrilməlidir. Bu sahədə xüsusi geniş dövlət proqramının qəbul olunması və kompleks tədbirlərin görülməsi vacibdir.

# Təhlükə harada, yanğınsöndürənlər orada




İnsan həyatı üçün yaranan və yarana biləcək bütün təhlükəli anlarda FHN əməkdaşları olan yanğınsöndürənlər vətəndaşların yanındadır. Biz onları dəhşətli yanğınlar zamanı da görmüşük, balkondan asılı qalan uşağı, qocanı, deformasiyaya uğramış nəqliyyat vasitələrindən insanları xilas edərkən də, sel-daşqınların vurduğu zərərləri aradan qaldırarkən də, suda batmaq üzrə olan insanı xilas edərkən də. Yəni hər bir təhlükəli anda ilk olaraq onlar gözə dəyir.

Vəzifə başında həyatını itirən, xəsarət alan FHN əməkdaşları da az deyil. Odur ki, Azərbaycan vətəndaşı da bu qurumun əməkdaşlarına sayğı ilə yanaşır. Çünki onlar vəzifə borcunu həyata keçirməklə yanaşı, həm də insanların düşdüyü ağır vəziyyətlərin şahidi olaraq ürəkağrısı keçirir, yeri gələndə onlarla birlikdə duyğulu anlar yaşayırlar.

Təhlükəsizlik dedikdə ilk göz önünə gələn onlardır. Buna yaxın zaman kəsiyində baş verən tədbir və hadisələrin fonunda nəzər alaq.

Ötən il ölkəmizdə keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) zamanı nazirliyin bütün qüvvələri səfərbər olunaraq obyektlərin, o cümlədən tədbir keçirilən məkanların, otellərin, iaşə obyektlərinin, insanların kütləvi toplaşdığı yerlərin, istirahət və ticarət mərkəzlərinin, infrastruktur və strateji obyektlərin, habelə bu obyektlərin ətrafında yerləşən bina və tikililərin yanğın, texniki, tikinti və radiasiya təhlükəsizliyi sahələri üzrə müayinə və monitorinqləri keçirildi, müvafiq tədbirlərin görülməsi təmin edildi. Həmin obyektlərdə çoxsaylı təlimlər keçirilərək fövqəladə hallarla bağlı davranış qaydalarına dair geniş maarifləndirmə işləri aparıldı. Həmçinin, tədbir ərəfəsində və tədbir günlərində mümkün fövqəladə hallara çevik reaksiya verilməsinin təmin edilməsi məqsədilə nazirliyin qüvvə və vasitələri tam hazır vəziyyətə gətirilərək gücləndirilmiş iş rejimində çalışdı. Nəticədə isə dünyanın çoxsaylı ölkəsindən gələn qonaqlar burada heç bir təhlükəli məqamla qarşılaşmadı.





Yanğınsöndürənlərimizi nəinki ölkəmizdə böyük məsuliyyətinin, yeri gələndə qonşu yardımına da əzmlə getdiyinin şahidi olmuşuq. 2017-ci ilin avqust ayında Gürcüstanın Borjomi-Xaraqulsk qoruğunda baş vermiş meşə yanğınlarının söndürülməsinə dövlətimizin başçısının tapşırığına əsasən FHN-nin 22 texnikası, o cümlədən 1 helikopteri və 131 nəfər canlı qüvvəsi cəlb edilmiş və qonşu ölkəyə ezam olunmuş FHN əməkdaşları orada böyük əzmlə fəaliyyət göstərmişlər.

2023-cü il fevral ayının 6-da Türkiyənin Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Osmaniye, Adana, Şanlıurfa, Malatya, Diyarbəkir, Kilis və Elazığ bölgələrində baş verən 7,7 və 7,6 bal gücündə zəlzələ miqyasına, dağıntılara və insan itkisinə görə əsrin fəlakəti kimi xarakterizə edilir. Həmin vaxt dövlət başçısının göstərişinə əsasən, fəlakət zonasına ilk olaraq Azərbaycanın FHN xilasediciləri çataraq dağıntılar altında qalan insanları çıxarmağa başladılar. Azərbaycandan göndərilən 669 xilasedici Hatay, Antakiya, Kahramanmaraş, Adıyaman və digər şəhərlərdə xilasetmə əməliyyatlarında fəal iştirak etdi. Xilasedicilərimiz 53 nəfəri xilas edib, dağıntılar altından 780 cəsədi çıxararaq yaxınlarına verdi.

FHN əməkdaşları Türkiyədə eyni zamanda zəlzələnin dağıntılarının aradan qaldırılmasında və zərər görənlər üçün çadırların qurulmasında və digər işlərin görülməsində də yaxından iştirak edirdilər.

2020-ci ildə 44 günlük İkinci Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsində də FHN əməkdaşlarının həm bir vətəndaş, həm də vəzifəsini həyata keçirən şəxs kimi əzm və hünərini gördük.

Mənfur düşmən Gəncəni, Bərdəni, Tərtəri, Ağdamı və digər əraziləri atəşə tutduğu müddətdə FHN-nin yanğınsöndürənləri atəş altında öz vəzifələrini layiqincə yerinə yetirirdilər.

FHN əməkdaşları ermənilərin mülki əhalinin yaşadığı şəhərlərə atdığı raketlər nəticəsində yaralanan vətəndaşlarımızın axtarış və xilasetmə işlərində iştirak edir, nazirliyin hərbi qulluqçu və xüsusi rütbəli əməkdaşları torpaqlarımızın işğaldan azad olunması ilə əlaqədar əməliyyatlar çərçivəsində fövqəladə halların, o cümlədən düşmənin mərmi və raket zərbələri nəticəsində yaranan dağıntı və yanğınların qarşısının alınması, nəticələrinin çevik aradan qaldırılması, zərərçəkmişlərin xilas edilməsi, təxliyəsi, döyüş bölgəsində yaşayan insanların gündəlik təminatı, habelə digər istiqamətlərdə xidməti vəzifələrini ləyaqətlə yerinə yetirirdi. İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi işlərində də onlar iştirak edirlər. Vətən müharibəsində Fövqəladə Hallar Nazirliyindən 19 nəfər iştirak edərək şərəfli döyüş yolu keçib və Mülki Müdafiə Qoşunlarından 1 nəfər şəhid olub.

Bu gün ölkədə rəy sorğusu keçirilsə və "insanlar fövqəladə hallarda ilk kimin gələcəyinə inamla baxa bilirlər" sualı verilsə, əminliklə deyə bilərik ki, cavab belə olacaq: FHN əməkdaşları-yanğınsöndürənlər.

Ölkəmizdə və onun hüdudlarından kənarda baş verən təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında əsl fədakarlıq göstərən yanğınsöndürənlər günün 24 saatı vətəndaşlarımızın təhlükəsizliyinin keşiyində ayıqsayıq dayanırlar. Böyük məsuliyyətiniz, hünəriniz üçün sizə təşəkkür edirik!

10 oktyabr sizin gününüzdür. Bayramınız mübarək, əziz yanğınsöndürənlər.

***Mətanət Məmmədova***



# "Nar" Azərbaycanın iqtisadi imkanlarını əks etdirən analitik nəşrə dəstək verib



Sərfəli mobil operator "Nar" Alman-Azərbaycan Ticarət Palatası (AHK Azərbaycan) və "Germany Trade & Invest"in (GTAI) əməkdaşlığı ilə hazırlanan "Market Analysis Azerbaijan 2025-2026 - Industry Profiles and Investment Trends" adlı yeni nəşrin çapına dəstək olub.Bu nəşr Azərbaycanın iş dünyası nümayəndələri üçün etibarlı informasiya mənbəyi kimi ölkəmizin iqtisadiyyatında baş verən əsas inkişaf tendensiyalarını və gələcək investisiya imkanlarını təqdim edir.

Nəşr Azərbaycanın iqtisadi mənzərəsini əhatəli şəkildə təqdim edərək yerli və xarici investorlar üçün dəyərli bələdçi rolunu oynayır. Topluda ölkə iqtisadiyyatının on bir əsas sektoru-bərpa olunan enerji, neft-qaz, tikinti, kənd təsərrüfatı, səhiyyə, maliyyə, İKT, nəqliyyat, gəmiqayırma, mədən və su təsərrüfatı sahələri üzrə vəziyyət və perspektivlər ətraflı təhlil olunub. Həmçinin Qarabağın bərpası, sənaye zonaları və Bakı şəhərinin baş planı kimi istiqamətlər də ayrıca bölmələrdə işıqlandırılıb. Nəşr alman və ingilis dillərində pulsuz təqdim olunur və AHK Azərbaycanın rəsmi vebsaytından yüklənmək mümkündür.

Bu layihəyə dəstək verməklə "Nar" Azərbaycanın iqtisadi inkişafı və beynəlxalq biznes əlaqələrinin güclənməsinə töhfə verməyi, həmçinin ölkədə bilik əsaslı və davamlı iqtisadi mühitin formalaşmasına dəstək göstərməyi hədəfləyir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Türk Dövlətləri Təşkilatı: Yeni qlobal güc mərkəzinə doğru

***7 oktyabr 2025-ci il tarixində Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının XII Zirvə Görüşü qardaş ölkələrin birliyini, qarşılıqlı əməkdaşlıq və strateji həmrəyliyini bir daha nümayiş etdirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışı Türk dünyasının geosiyasi, iqtisadi və mədəni potensialının dərin təhlilinə, eyni zamanda bu birliyin gələcək inkişaf istiqamətlərinə dair konkret baxışlara əsaslanırdı. Prezidentin qeyd etdiyi kimi, bu gün Türk Dövlətləri Təşkilatı artıq sadəcə əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəz kimi formalaşır.***

Təşkilatın beynəlxalq nüfuzunun artması,



***Hümbət Hüseynov,***
***M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri***

regional sülh və təhlükəsizliyin təmin olunmasında fəal rolu, ortaq dəyərlər və tarixi köklər əsasında inteqrasiya proseslərinin gücləndirməsi türk dünyasının müasir beynəlxalq sistemdə strateji mövqeyini möhkəmləndirir. Azərbaycanın bu prosesdə aparıcı rolu, iqtisadi, siyasi və təhlükəsizlik sahələrində təşəbbüskar mövqeyi TDT-nin inkişafında xüsusi əhəmiyyət kəsb edir.

Prezident cənab İlham Əliyev çıxışında vurğuladı ki, sülh və təhlükəsizlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Bu prinsip TDT-nin təməl sənədi olan Naxçıvan Sazişində də öz əksini tapmışdır. Hazırkı mürəkkəb geosiyasi şəraitdə türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi zəruridir. Azərbaycanın son illərdə əldə etdiyi tarixi Zəfər və ərazi bütövlüyünün tam bərpası regionda ədalətli sülhün və sabitliyin bərqərar olunmasında mühüm mərhələdir.

2023-cü ildə antiterror tədbirlərinin uğurla başa çatması və 2025-ci ildə Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazda yeni dövrün başlanğıcıdır. Bu hadisələr yalnız Azərbaycanın milli iradəsinin təntənəsi deyil, həm də Türk Dövlətləri Təşkilatının sülh və təhlükəsizlik prinsiplərinə sadiqliyinin təzahürüdür. Müasir beynəlxalq münasibətlər sistemində hərbi güc müstəqilliyin və ərazi bütövlüyünün əsas təminatçısı kimi çıxış edir. Azərbaycan bu sahədə xüsusilə Türkiyə ilə dərin əməkdaşlıq əlaqələri qurmuşdur. Son bir ildə 25-dən çox ikitərəfli və çoxmillətli hərbi təlimin keçirilməsi türk dövlətləri arasında qarşılıqlı etimad və strateji həmrəyliyin nümunəsidir. Prezident cənab İlham Əliyevin 2026-cı ildə Azərbaycanda TDT-yə üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsi barədə təklifi bu əməkdaşlığı institusional səviyyəyə qaldırmağa yönəlmiş strateji addımdır. Bu təşəbbüs, həmçinin, regionda sülh və sabitliyin qorunması baxımından önəmli rol oynayacaq.




Türk dünyasının coğrafi yerləşməsi və təbii resurs potensialı qlobal iqtisadi sistemdə yeni imkanlar açır. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşərək mühüm tranzit mərkəzinə çevrilmişdir. 2022-ci ildən bəri Orta Dəhliz üzrə yükdaşımaların 90 faiz artması bu potensialın real nəticəsidir. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Ticarət Limanı, 9 beynəlxalq hava limanı və güclü dəniz donanması Azərbaycanın logistika sahəsində strateji üstünlüyünü artırmışdır. Vaşinqton Zirvəsinin mühüm nəticələrindən biri olan Zəngəzur dəhlizinin açılması isə Türk dövlətləri arasında iqtisadi inteqrasiyanın daha da dərinləşməsinə xidmət edir.

Azərbaycan enerji təhlükəsizliyinin təminində etibarlı tərəfdaş kimi tanınır. Hazırda 14 ölkəyə təbii qaz ixrac edən ölkəmiz bu sahədə regional lider mövqeyinə malikdir. Bununla yanaşı, Prezident cənab İlham Əliyev çıxışında bərpaolunan enerji mənbələrinə böyük sərmayələrin yatırıldığını vurğulamışdır. 2030-cu ilə qədər ölkənin enerji istehsalının 40 faizi məhz bu mənbələr hesabına təmin ediləcək. Orta Asiya-Azərbaycan-Türkiyə-Avropa istiqamətində yaşıl enerji dəhlizinin yaradılması ideyası yalnız iqtisadi deyil, həm də ekoloji dayanıqlıq baxımından strateji əhəmiyyət daşıyır. Bu təşəbbüs Türk dünyasının qlobal enerji bazarında yeni mövqeyini formalaşdıracaq.

Prezidentin çıxışında ortaq dil, tarix və mədəniyyət amillərinin türk birliyinin əsas sütunları olduğu xüsusi vurğulanmışdır. 1926-cı ildə Bakıda keçirilmiş birinci Türkoloji Qurultay bu baxımdan tarixi hadisə kimi xatırlanır. Gələn il bu Qurultayın 100 illiyinin TDT çərçivəsində təntənəli şəkildə qeyd edilməsi təklifi türk xalqlarının mədəni birliyinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Azərbaycanın azad edilmiş ərazilərində qardaş ölkələrin dəstəyi ilə inşa olunan məktəblər, yaradıcılıq mərkəzləri və məscidlər türk həmrəyliyinin rəmzi kimi dəyərləndirilir. Füzuli, Ağdam, Cəbrayıl kimi şəhərlərdə görülən bu işlər təkcə humanitar dəstək deyil, həm də ümumtürk birliyinin mənəvi simvolu kimi çıxış edir. Qəbələdə keçirilmiş XII Zirvə Görüşü Türk Dövlətləri Təşkilatının gələcək istiqamətlərini müəyyən edən strateji mərhələ kimi tarixə düşdü. Prezident cənab İlham Əliyevin çıxışı TDT-nin siyasi, iqtisadi, enerji, müdafiə və mədəni inteqrasiya sahələrində birliyin dərinləşməsi üçün yol xəritəsi rolunu oynadı.

Türk dövlətlərinin birliyi artıq regional deyil, qlobal miqyaslı strateji güc mərkəzi kimi formalaşmaqdadır. Bu birliyin əsasında ortaq dəyərlər, qarşılıqlı etimad, dayanıqlı inkişaf və sülhə sadiqlik dayanır. Azərbaycanın təşəbbüskar və məsuliyyətli mövqeyi, həm regional təhlükəsizliyin təminində, həm də iqtisadi və enerji sahəsində əməkdaşlığın genişləndirilməsində əsas hərəkətverici qüvvə olaraq qalır.

Türk dünyasının gələcəyi birliyin möhkəmlənməsindən, ortaq məqsədlərin reallaşdırılmasından və qardaş xalqların həmrəyliyindən keçir. Qəbələ Zirvəsi bu istiqamətdə mühüm dönüş nöqtəsi kimi Türk Dövlətləri Təşkilatının tarixində öz layiqli yerini tutmuşdur.

# "Sosial şəbəkələr müasir insan həyatında risk və imkan mənbəyidir"

"Müasir dövrdə sosial şəbəkələr insanların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Bu platformalar vasitəsilə insanlar dünyanın müxtəlif yerlərində baş verən hadisələrdən xəbərdar olur, yeni biliklər qazanır və müxtəlif sahələr üzrə məlumatlar əldə edirlər. Sosial şəbəkələrin bu müsbət funksiyaları onların informasiya cəmiyyətindəki rolunu daha da artırır. Lakin bütün bu üstünlüklərlə yanaşı, sosial şəbəkələrdən düzgün istifadə edilmədikdə, onlar mənfi nəticələr doğuran, xüsusilə ailə münasibətlərinə zərər vuran bir vasitəyə çevrilə bilir". Bu fikirləri SİA-ya açıqlamasında əməkdar jurnalist, sosioloq Mətanət Məmmədova deyib.

O bildirib ki, sosial şəbəkələrdə müxtəlif sosial təbəqələrdən olan insanlar öz həyat tərzlərini nümayiş etdirir, ailə dəyərlərini paylaşır və bu yolla cəmiyyətə müəyyən dəyərlər aşılayırlar. Belə paylaşımlar bəzən gənclər üçün müsbət nümunə rolunu oynayır. Məsələn, ailə daxili mərasimlərin, milli dəyərlərə əsaslanan tədbirlərin paylaşılması gənc nəsildə ailəyə hörmət və sevgi hisslərini gücləndirə bilir. Bu baxımdan sosial şəbəkələr ailə dəyərlərinin təbliğində mühüm vasitə ola bilər.

Lakin digər tərəfdən, sosial şəbəkələrdə ailə dəyərlərinə zidd, maddiyyatın və saxta həyat tərzinin təbliği də geniş yayılmışdır. Bəzi blogerlər və istifadəçilər bahalı hədiyyələr, avtomobillər və lüks həyat tərzini nümayiş etdirərək gənclərdə yanlış təsəvvür formalaşdırırlar. Əslində bu paylaşımların əksəriyyəti həqiqəti əks etdirmir, onlar izlənmə və bəyənmə sayını artırmaq, gəlir əldə etmək məqsədilə hazırlanır. Nəticədə gənclər bu saxta həyatı öz reallıqları ilə müqayisə edir, münasibətlərdə əsassız gözləntilər yaranır və ailə münaqişələri meydana çıxır. Belə hallarda sosial şəbəkələri deyil, onlardan istifadə edən insanları günahlandırmaq daha doğru olar. Çünki hər bir fərd sosial mediadan necə istifadə edəcəyini özü müəyyənləşdirir. Əgər bu platformalardan düzgün və məqsədyönlü şəkildə istifadə olunsa, onlar ailə dəyərlərinin möhkəmlənməsinə, sağlam münasibətlərin



formalaşmasına xidmət edə bilər.

Eyni zamanda, sosial şəbəkələrdə ailə dəyərləri, psixoloji sabitlik və münasibətlərin düzgün qurulması ilə bağlı çoxlu maarifləndirici videolar, məqalələr və məsləhətlər mövcuddur. Bu baxımdan sosial media həm zərərli, həm də faydalı ola bilər , bu, tamamilə istifadəçinin seçimindən asılıdır. Nəticə etibarilə, sosial şəbəkələr müasir insan həyatında həm risk, həm də imkan mənbəyidir. Əgər fərd dərk edərsə ki, bu platformalarda təqdim olunan həyat çox zaman reallığa uyğun deyil və əsas məqsəd kommersiya maraqlarıdır, o zaman sosial şəbəkələr onun ailə münasibətlərinə mənfi deyil, əksinə, müsbət təsir göstərə bilər. Buna görə də sosial mediadan məqsədyönlü, mədəni və şüurlu şəkildə istifadə etmək, ailə dəyərlərimizi qorumağın ən vacib şərtlərindən biridir".

***Səbinə Hüseynli***

# İctimai nəqliyyatda gediş haqqı artdı - bəs keyfiyyət necə ?






**Məlum olduğu kimi 1 Oktyabr tarixindən etibarən ictimai nəqliyyatda gediş haqqı 20% artırıldı. Hökümət rəsmiləri qiymət artımının xidmət səviyyəsinin və keyfiyyətin artırılması məqsədi ilə edildiyini bildirir. Bəs görəsən ictimai nəqliyyatda insanlara göstərilən keyfiyyət yüksəlibmi? SİA bu barədə şəhər sakinləri arasında sorğu keçirib.**






**Şəhər sakini Nəcəf Qulammirzəyev:** ”İctimai nəqliyyatda həddən artıq sıxlıqdır. Keyfiyyətdə hər hansısa bir artım yoxdur. Gediş haqqını lap 5 manat etsinlər heç bir faydası olmayacaq. Keyfiyyətin yüksəlməsi ilə bağlı verilən açıqlamalar isə sadəcə bəhanədir”.

**Şəhər sakini Aydın Məmmədov:** ”Keyfiyyətdə heç bir artım yoxdur. Avtobus sürücüləri tərbiyəsizlik edir, avtobusları dayanacaqdan kənarda saxlayırlar. Avtobusdan düşmək istədikdə arxa qapını açmırlar”.

**Şəhər sakini Elmira Məmmədova:** ”Yaşlı, xəstə insanam. Cəmi 220 manat müavinət alıram. Mənim kimi yüzlərlə insan var ki, 220 manat müavinətə baxır. Maaş və pensiyalarda heç bir artım yoxdur. Ancaq qiymətləri artırırlar. Mən 220 manat müavinət alan adamam. Hər dəfə 60 qəpik pulu haradan almalıyam?”.

**Şəhər sakini Eltun Quluzadə:** ”Bakubus avtobuslarında vəziyyət yaxşıdır. Həm rahatdır, həm də kondisoner işləyir. Ancaq metroda sıxlıq olur. Əsasən 28 may, Nizami stansiyalarında qatarlara minmək olmur”.

**Şəhər sakini Minayə Atakişiyeva:** ”İctimai nəqliyyatdan istifadə etmirəm. Ancaq ailə üzvlərim istifadə edir. Məktəblilər, tələbələr, təqaüdçülər üçün ictimai nəqliyyatda güzəşt tətbiq edilsə yaxşı olar”.

***İlkin Məmmədkərimov***

# “Telefon asılılığı uşaqların psixoloji və sosial inkişafına mənfi təsir göstərir”

*PSİXOLOQ ŞƏRH ETDİ*



”Müasir dövrdə texnologiyanın həyatımızın ayrılmaz hissəsinə çevrilməsi ilə uşaqlarda telefon asılılığı problemi də getdikcə dərinləşir. Bu məsələ təkcə valideynləri deyil, həm də pedaqoqları və psixoloqları ciddi şəkildə narahat edir. Real olaraq, telefon asılılığı uşaqların psixoloji, sosial və emosional inkişafına mənfi təsir göstərən faktorlardan biridir”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib. Onun sözlərinə görə, ilk növbədə telefonun uzunmüddətli istifadəsi uşağın diqqətini zəiflədir. Məsələn, sosial şəbəkələrdə və ya oyunlarda uzun müddət vaxt keçirmək uşağın beyin fəaliyyətinə mənfi təsir göstərir, diqqət intervalını azaldır: ”Nəticədə dərs oxuma, kitab mütaliəsi və gündəlik tapşırıqlara fokuslanmaq çətinləşir. İkinci mühüm məqam emosional sabitliklə bağlıdır. Telefon asılılığı olan uşaqlar real həyatdan uzaqlaşır, daha çox virtual aləmdə rahatlıq tapmağa çalışırlar. Bu isə sosial əlaqələrin zəifləməsinə, tənhalıq hissinin artmasına və nəticədə özünəqapanmaya səbəb ola bilər. Xüsusilə sosial şəbəkələrdə başqaları ilə özünü müqayisə edən uşaqlar özünü dəyərsiz hiss etməyə başlayır, bu da aşağı özünəqiymət və depressiv hallarla nəticələnə bilir.




Üçüncü aspekt yuxu rejimidir. Araşdırmalar göstərir ki, axşam saatlarında uzun müddət telefondan istifadə edən uşaqların yuxu keyfiyyəti ciddi şəkildə pozulur. Mavi işıq beyində melatonin hormonunun ifrazını azaldır və bu da yuxuya getməni çətinləşdirir. Yuxusuzluq isə gün ərzində əsəbilik, diqqətsizlik və motivasiyanın azalması ilə müşahidə olunur.

Eyni zamanda, telefon oyunları və sosial platformalarda olan aqressiv və ya mənfi məzmun uşaqların davranış modelinə də təsir edir. Uşaqlar bu məzmunları təqlid etməyə meyilli olur və nəticədə aqressiv davranış, dözümsüzlük və empatiya çatışmazlığı müşahidə olunur. Psixoloq kimi valideynlərə tövsiyəm odur ki, uşaqların texnologiya ilə münasibətinə sərt qadağalarla deyil, düzgün nəzarət və maarifləndirmə ilə yanaşsınlar. Uşağın gün ərzində telefona sərf etdiyi vaxt məhdudlaşdırılmalı, eyni zamanda onu maraqlı alternativ fəaliyyətlərə - idmana, incəsənətə və ya kitab oxumağa yönləndirmək lazımdır. Telefon özü problem deyil; problem onunla necə və nə qədər vaxt keçirilməsindədir. Uşaqlarda balanslı texnologiya istifadəsi formalaşdırılmadığı halda, bu, gələcəkdə ciddi psixoloji və sosial nəticələrə gətirib çıxara bilər. Buna görə də həm valideynlərin, həm müəllimlərin, həm də cəmiyyətin bu məsələdə birgə və sistemli şəkildə addımlar atması vacibdir”.

***Ziya Hikmətoğlu***

# Qardaş ölkələrdən Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək

*Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri də türk dövlətləri ilə münasibətlərin daha da möhkəmləndirilməsidir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz mövcud münasibətlərin əsasını təşkil edir. Çağdaş dünyamızda türkdilli dövlətlər arasında əməkdaşlıq daha güclənib və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Yeni bir dövrə qədəm qoyan Azərbaycan beynəlxalq təşkilatlarla, eləcə də, Türk Dövlətləri Təşkilatı ilə sıx əməkdaşlığa malikdir. TDT-yə üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması, onların bir-birini qarşılıqlı şəkildə dəstəkləməsi təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir.*




Mövcud qlobal və regional təhlükəsizlik çağırışlarının qarşısında hərtərəfli siyasi koordinasiya və həmrəyliyin nümayişi TDT-nin güc birliyinin təzahürüdür. Müasir dövrümüzdə TDT-yə üzv dövlətlər coğrafi baxımdan təbii nəqliyyat, logistika, tranzit xətlərini təşkil edərək, Avropa və Asiya qitələri arasında körpü rolunu oynayır. Son illərdə Türk dövlətləri arasında əlaqələr bütün sahələrdə intensiv xarakter alıb və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdirilir.

## ”BU GÜNƏ QƏDƏR QARDAŞ ÖLKƏLƏRİN İQTİSADİYYATINA 20 MİLYARD ABŞ DOLLARINDAN ÇOX VƏSAİT QOYULUB”

Qeyd edək ki, TDT-yə üzv dövlətlərin ümumi sahəsi 4 milyon 242 min 362 kv km, əhalisinin sayı 149 milyon 817 min 367 nəfərdir. Ümumi Daxili Məhsulun həcmi 1 trilyon 42 milyard 561 milyon dollardır. Müşahidəçi ölkələrin (Macarıstan, Türkmənistan, Şimali Kipr Türk Respublikası) ərazisi 581 min 129 kv km, əhalisinin sayı 15 milyon 802 min nəfər, ümumi daxili məhsulun həcmi 208 milyard 771 milyon dollardır. Bu o deməkdir ki, TDT 250 milyon nəfərin siyasi, iqtisadi, mədəni sahələrdə, təhlükəsizliyin təmin edilməsi istiqamətində birgə fəaliyyət göstərməsi günün tələbidir. Tərəflərin bir-birinin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı, habelə daxili işlərinə qarışmamaq prinsipləri əsasında dövlətlərin siyasi və iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində əməkdaşlığa üstünlük verməsi də qlobal miqyasda yaranan vəziyyətin şərtlərindən sayıla bilər. ”TDT-yə üzv ölkələrlə Azərbaycan bir çox önəmli sərmayə layihələrini icra edib. Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub. Bunun əsas hissəsi Türkiyə iqtisadiyyatına qoyulmuş sərmayədir. Bununla bərabər, Azərbaycan Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə sərmayə fondları yaradıb. Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək. Ümumilikdə, atılan addımlar Türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət edir”, - deyə Prezident çıxışında bildirib.

Bu günlərdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının Qəbələdə biraraya gəlməsi əməkdaşlığın göstəricisidir. Milli köklərimizlə, ortaq dəyərlərimizlə, mədəniyyətimizlə, dilimizin, dinimizin eyniliyi ilə sıx bağlı olduğumuz türk xalqlarının birliyinin ən yüksək zirvəyə çatdığı tarixi məqamları yaşayırıq.

Azərbaycan Prezidentinin vurğuladığı kimi, ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir. 1926-cı ildə Bakıda təşkil edilmiş birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulayan dövlətimizin başçısı gələn il birinci Qurultayın keçirilməsinin 100 illik yubileyinin TDT çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edib.

## BÖYÜK TÜRK DÜNYASININ ZƏFƏRİ



TDT-yə üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması, onların bir-birini qarşılıqlı şəkildə dəstəkləməsi təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir. Belə ki, hələ 2020-ci ildə Vətən müharibəsi zamanı bəziləri hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmasına baxmayaraq, türk dövlətləri Azərbaycanın haqlı mübarizəsinə öz dəstəklərini verdilər. 2020-ci il türk dünyası üçün yadda qalan oldu.



Azərbaycanın qətiyyəti, cəsarəti və haqlı mübarizəsi ilə qazandığı bu Qələbə yalnız ərazilərinin işğaldan azad edilməsi deyil, ədalətin və milli qətiyyətin zəfəridir. Bu, böyük Türk dünyasının ortaq zəfəri kimi dəyərləndirilir. Qarabağ Zəfəri bir daha göstərdi ki, Türk dünyası birlikdə olanda hər çətinliyin öhdəsindən gəlmək mümkündür. Həmrəy şəkildə fəaliyyət göstərən türk dövlətləri yalnız öz təhlükəsizliyini deyil, regionda sülhün, sabitliyin və rifahın ən güclü təminatçısıdır. Türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir.



Azərbaycan tarixi Zəfərdən sonra azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini davam etdirir. Zəfər qazanan Azərbaycan Qarabağımızda, Şərqi Zəngəzurda böyük quruculuq işlərini davam etdirir. Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kəndi müasir məkana çevirir. Tamamilə yeni bir dövr yaşanılır və bu torpaqların əzəli sakinlərinin işğaldan azad edilmiş torpaqlara mərhələ-mərhələ qayıdışı böyük canlanmaya səbəb olub. Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Bildiyimiz kimi, Türk Dövlətləri Təşkilatına üzv olan dövlətlər Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-yenidənqurma işlərinə də öz töhfələrini verirlər. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına məktəb artıq fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi Cəbrayılda tikilən məktəbdir. Türkmən qardaşlarımızın hədiyyəsi - bu gün təməli qoyulan Füzuli məscididir. Qardaş Türkiyənin şirkətləri bir çox tunellər, körpülər, yollar inşa edir. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq”.

## “QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN BƏRPASINA DƏSTƏK ÜÇÜN QARDAŞ ÖLKƏLƏRƏ BİR DAHA TƏŞƏKKÜRÜMÜ BİLDİRİRƏM”

Bildiyimiz kimi, oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoyublar. Türkmənistan tərəfindən Füzulidə inşa ediləcək məscid kompleksinin ümumi ərazisi 1 hektardan çox olacaq. Məscid binasında hər biri 40 metr olmaqla 2 minarə inşa ediləcək. Əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcək. Burada eyni vaxtda 500 nəfər ibadət edə biləcək. Qəbələdə keçirilən Zirvə Görüşü türk dövlətlərinin dəyərlərinin, güclü birliyinin təntənəsidir. Bu gün ortaq tarix və mənəvi bağlar üzərində qurulan Türk dövlətlərinin əməkdaşlığı strateji tərəfdaşlığa və ortaq uğurlu gələcəyə çevrilib. Bu birliy və qarşılıqlı etimad gələcəkdə də regionda sülhün, sabitliyin və rifahın təminatçısı olacaq,

Qeyd edək ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində Azərbaycan dövlətinin gördüyü işlərə TDT-yə üzv və müşahidəçi ölkələr də öz töhfələrini verir. Belə ki, Türkmənistan tərəfindən Füzulidə məscidin tikintisi ilə yanaşı, bu rayonda Özbəkistan tərəfindən Mirzə Uluqbəy adına məktəbin, Qazaxıstan tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin, Ağdamda Qırğızıstan tərəfindən Manas adına məktəbin tikilib istifadəyə verilməsi, Macarıstan tərəfindən Cəbrayılda məktəb binasının tikilməsi, Türkiyə şirkətlərinin bir çox tunel, körpü və yolların inşasında iştirakı bunun əyani göstəricisidir.

Ortaq soy-kök, ortaq tarix və mədəniyyət, milli dəyərlər, eyni zamanda, üzv ölkələr arasında qarşılıqlı dəstək, mövcud potensial və həyata keçiriləcək layihələr Türk Dövlətləri Təşkilatının rolunu daha da artırır və onu dünyanın aparıcı beynəlxalq qurumlarından birinə çevirir. Dövlət başçımızın çıxışlarının birində vurğuladığı kimi, ”Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün bir daha qardaş ölkələrə təşəkkür edib. Bu barədə dövlət başçısı ”X” sosial şəbəkəsində paylaşım edib. Paylaşımda deyilir: ”Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq”.

***Zümrüd BAYRAMOVA***

# Məsuliyyətsizliyin sosial anatomiyası

## *Cəmiyyətin aynası kimi "tullantılar"*

***Bir insanın ətraf mühitə necə davrandığı, onun dünyagörüşünün və mənəvi mədəniyyətinin ən açıq göstəricilərindən biridir. Küçədə yerə atılmış bir butulka, parkda unudulmuş plastik torba və ya dəniz kənarında toplanmayan tullantılar Bunlar sadəcə fiziki tullantılar deyil, cəmiyyətin düşüncə tərzindəki qarışıqlığın, məsuliyyətsizliyin və fərdi laqeydliyin izləridir. Tullantının yeri bəzən sanki insanın iç dünyasını ələ verir: kimisi onu zibil qabına atmaqla ətrafını qorumağı, kimisə yerə atmaqla "mənim deyil" düşüncəsini ifadə edir.***

Ətrafı zibilləmək bir davranış forması kimi yalnız fərdi vərdişlərlə bağlı deyil, sosial dəyərlərin və ictimai məsuliyyətin necə formalaşdığını göstərir. Cəmiyyətin ümumi davranış qaydaları fərdlərin gündəlik seçimlərinə sirayət edir. İnsan əgər böyüdüyü mühitdə təmizlik və qayğıya dəyər verildiyini görmürsə, onun üçün ətrafı zibilləməmək bir məsuliyyət deyil, əksinə, mənasız qayda kimi görünə bilər. Beləcə, laqeydlik davranışa, davranış isə adətə çevrilir.

Tullantılar, ən sadə mənada, "mənim arxamı yığmaq kiminsə borcudur" düşüncəsinin nəticəsidir. Bu düşüncə forması fərdin sosial şüurunda məsuliyyətin paylaşılmadığını göstərir. Əgər bir cəmiyyətdə insanlar küçəyə zibil atmağı normal sayırsa, orada ictimai qaydaların mənəvi dayaqları da zəifləyir. Təmizlik mədəniyyəti sadəcə gigiyena məsələsi deyil, bu, insanın həm özünə, həm digərlərinə, həm də yaşadığı yerə olan münasibətinin simvoludur. Məsələnin dərinliyinə baxdıqda, zibilləmək sadəcə pis vərdiş yox, sosial etinasızlığın, ətraf mühitlə bağın qırılmasının və kollektiv məsuliyyət hissinin itkisidir. İnsan öz davranışının nəticələrini görmədikcə, o davranış onun üçün problem sayılmır. Küçədə bir butulka atan şəxs, sabah həmin küçədə uşağının oynayacağını düşünmür, çünki "ictimai məkan" anlayışı onun şüurunda şəxsi məsuliyyət dairəsindən kənardadır.

Cəmiyyətin mədəni səviyyəsi, onun ətraf mühitə və ictimai məkanlara göstərdiyi hörmətlə ölçülür. Bir xalqın incəsənəti, dili və tarixi nə qədər zəngin olsa da, əgər o cəmiyyətin küçələri zibillidirsə, deməli, orada dəyərlər sistemi ilə gündəlik davranışlar arasında uçurum var. Təmizlik mədəniyyəti sadəcə gigiyenik qayda deyil, sosial məsuliyyətin və mənəvi intizamın göstəricisidir. İnsan ətrafı təmiz saxladıqda, o təkcə fiziki mühiti deyil, eyni zamanda mənəvi mühiti də qoruyur.

"Mənim deyil" düşüncəsi, sosioloji baxımdan, kollektiv məsuliyyətin parçalanması ilə formalaşır. İctimai məkanın "hər kəsin" deyil, "heç kimin" yeri kimi qavranılması insanların davranışında laqeydlik yaradır. Məsələn, evinin qarşısını süpürən, amma binanın qarşısındakı həyəti zibilləyən insan fərqinə varmadan fərdi sahə ilə ictimai sahə arasında sərhəd çəkir. Bu sərhəd, cəmiyyətin birgə yaşamaq mədəniyyətinə ən ciddi zərbələrdən biridir. Belə bir düşüncənin kökləri çox zaman sosial tərbiyənin boşluqlarında gizlənir. İnsan uşaqlıqdan öyrədilməsə ki, "küçə də evindir", "park da sənin nəfəs yerindir", o zaman o məkanı öz məsuliyyət dairəsinə daxil etmir. Beləliklə, "ictimai mülk" anlayışı reallıqda heç kimin mülkünə çevrilir. Bu, fərdi deyil, sistemli məsələdir. Məktəbdə, ailədə, ictimai kampaniyalarda ətraf mühit mədəniyyətinə yetərincə diqqət ayrılmadıqda, cəmiyyətin ümumi davranışı da bu laqeydliklə formalaşır.

Mədəniyyət təkcə sənət deyil, davranış estetikasının da formasıdır. Küçəyə atılmış zibil, divara yazılmış kobud söz, oturacaqda buraxılmış butulka. Bunların hər biri bir davranış dilidir. Bu dilin söylədiyi cümlə sadədir: "Burada qayda yoxdur." Halbuki qayda və məsuliyyət hissi, insanın öz varlığını mənalı şəkildə cəmiyyətlə uzlaşdırmasının yeganə yoludur. Əgər insan qaydanı yalnız cərimədən qorxduğu üçün qəbul edirsə, o zaman



məsuliyyət dəyər deyil, qorxu vasitəsinə çevrilir.

Məsuliyyətin dəyərə çevrilməsi üçün o, mənəvi sistemin bir hissəsinə çevrilməlidir. Yəni insan zibili atmadığına görə deyil, atmaq istəmədiyinə görə atmaz. Bu fərq, mədəniyyətin mahiyyətidir. Əsl mədəni insan davranışını başqalarının gözündən gizlətməz, çünki onun davranışı artıq xarici nəzarətə deyil, daxili mənəvi ölçüyə bağlıdır. Cəmiyyətin bəzi təbəqələrində təmizlik anlayışı hələ də "kimsə gələcək, yığışdıracaq" prinsipi ilə düşünülür. Bu isə təkcə ekoloji deyil, həm də psixoloji məsələdir. Bəzi xalqlarda bu məsələ mədəniyyətin dərin qatlarına işləyib. Məsələn, Yaponiya cəmiyyətində təmizlik ictimai dəyər kimi uşaqlıqdan öyrədilir. Orada küçəyə zibil atmaq, yalnız qaydanı pozmaq deyil, utanılacaq davranış sayılır. Çünki təmizlik bir "görünüş" deyil, bir "mənəviyyat" məsələsidir. Halbuki bir çox ölkələrdə, o cümlədən bizdə, təmizlik çox vaxt evin içində qapanmış anlayış kimi qalır. Küçənin zibillənməsi isə sanki fərdin məsuliyyət dairəsinə daxil edilmir. Beləliklə, ətrafı zibilləmək yalnız fiziki çirklənmə deyil, mədəni pozulmadır. O, insanın sosial məsuliyyət hissinin nə qədər zəif olduğunu göstərir. Mədəni cəmiyyət, yalnız təmiz küçələrə görə deyil, bu təmizliyi qorumağa çalışan vicdanlara görə formalaşır.

Bu davranışın psixoloji kökündə iki əsas mexanizm dayanır: laqeydlik və məsuliyyəti ötürmə. Laqeydlik insanın sosial duyarlılığının zəifləməsidir, öz hərəkətinin başqalarına necə təsir etdiyini düşünmür. Məsuliyyəti ötürmə isə fərdin daxili məsuliyyət hissini başqasına yönəltməsidir. "Onsuz da təmizlik işçiləri var", "bunu yığışdıracaq biri tapılar" kimi fikirlər bu mexanizmin tipik ifadələridir. Əslində, bu cür düşüncələr, fərdin öz məsuliyyətini başqasına yükləyərək vicdanını sakitləşdirmə cəhdidir.

Ətrafı zibilləyən insan, çox vaxt öz davranışının nəticəsini dərhal görmədiyi üçün məsuliyyət hiss etmir. Psixologiyada buna "gec nəticə effekti" deyilir. Davranışın mənfi nəticəsi dərhal hiss olunmadıqda, fərd onu əhəmiyyətsiz sayır. Məsələn, dəniz sahilində atılan plastik şüşə bir neçə ay sonra dalğalarla qayıdır, lakin insan o an bu əlaqəni görmür. Bu "nəticədən uzaq məsuliyyətsizlik" həm təbiətə, həm cəmiyyətə qarşı duyğusal bağın zəifliyini göstərir.

Sosioloji baxımdan isə zibilləmə davranışı, sosial qayda və nəzarətin zəif olduğu mühitlərdə daha çox müşahidə olunur. Təmiz və səliqəli məkan, insanı qayda daxilində davranmağa sövq edir, zibillənmiş məkan isə əksinə, "onsuz da pozulub" düşüncəsini yaradır. Bu, sosial psixologiyada "pozulmuş pəncərə effekti" kimi tanınır. Yəni bir yerdə qayda pozulursa, digərləri də orada qaydaya riayət etməməyə başlayır. Küçəyə atılmış ilk zibil, başqaları üçün sanki rəsmi icazə kimi görünür: "hamı belə edir, deməli, mən də ata bilərəm." Beləcə, məsuliyyətsizlik çoxalır və kollektiv davranış halını alır.

Digər tərəfdən, insanın ətrafla emosional bağının zəifləməsi də bu davranışı qidalandırır. Öz şəhərini, küçəsini, parkını "özününkü" kimi hiss etməyən insan, oraya zərər verdiyini düşünmür. Bu, həm urban psixologiyanın, həm də sosial kimliyin zəif formalaşmasının nəticəsidir. Cəmiyyət insanlara yaşadıqları məkanla mənəvi bağ qurmağı öyrədə bilmədikdə, o məkana sahib çıxmaq da mənasız görünür. Zibil atmaq bəzən dərin sosial məyusluğun və "mənimsəmə" çatışmazlığının simvoludur. Özünü cəmiyyətin bir parçası hiss etməyən fərd, onun qaydalarına əməl etməyi də vacib saymır. Bu, xüsusilə sosial ədalətsizliyin yüksək olduğu mühitlərdə daha çox görünür. İnsan "dövlət mənim üçün heç nə etmir, mən niyə qaydaya əməl edim?" kimi düşüncələrlə sosial məsuliyyətini haqlılaşdırmağa çalışır. Bu isə zibilləməni təkcə ekoloji deyil, həm də ideoloji məsələ halına gətirir.

Bir digər amil də maddi rahatlığın və sosial rahatlığın səhv anlaşılmasıdır. Müasir insan "rahatlıq" anlayışını çox zaman məsuliyyətsizliklə qarışdırır. Bir butulkanı yerə atmaq, o an üçün "rahatlıq" gətirir, çünki əziyyət çəkmədən məsələni "həll etmiş" olur. Amma bu rahatlıq, uzunmüddətli sosial və ekoloji yük yaradır. Məsuliyyətli davranış, əslində, qısa zamanda narahatlıq yaratsa da, uzun müddətdə harmoniya gətirir. Bu mənada zibilləmək həm fərdin, həm də cəmiyyətin özünə qarşı etinasızlıq formasıdır. İnsan öz davranışının nəticəsini düşünməyəndə, təkcə küçəni deyil, düşüncə mühitini də zibilləyir. Zibil, görünməz şəkildə, həm ətrafda, həm də dəyərlərdə yığılır.

Sosioloqlar tez-tez vurğulayır ki, məkan insanı formalaşdırır. Əgər bir ərazi baxımlıdırsa, insan o mühiti qorumağa daha çox meyillənir. Əgər ətraf səliqəsizdirsə, fərd içində "onsuz da dəyişməz" hissi ilə məsuliyyətdən uzaqlaşır. Bu, sosial psixologiyada "ətrafın adaptiv təsiri" kimi izah olunur. Yəni insan, davranışını gördüyü mənzərəyə uyğunlaşdırır. Bir divarın üzərinə yazılmış ilk kobud yazı, başqalarına da eyni cəsarəti verir. Beləcə, qaydasızlıq görünməz şəkildə çoxalır.

Şəhər estetikası yalnız gözəllik anlayışı deyil, həm də əxlaqi simvoldur. Qayğı ilə qorunan məkanlar, qayğı ilə yaşayan insanları tərbiyə edir. Bu münasibət bir növ qarşılıqlı tərbiyə prosesidir: insan şəhəri formalaşdırır, şəhər isə insana tərbiyə verir. Parkda, küçədə və ya dənizkənarında qayda və estetik balansın qorunması, cəmiyyətin öz dəyərlərinə hörmət etdiyini göstərir. Estetika həm də birləşdirici funksiyaya malikdir. Səliqəli mühitdə insanlar bir-birinə qarşı daha diqqətli, daha sakit və daha anlayışlı olur. Çünki nizamlı məkan insanın emosional tonunu tənzimləyir. Qarışıqlıq içində isə aqressiya, laqeydlik və məsafə yaranır. Bu, sadəcə fiziki deyil, sosial gərginliyin də qaynağıdır. Şəhər gözəlliyini itirdikcə, insanlar da bir-birinə qarşı yumşaqlığını itirir. Eyni zamanda, şəhərin estetik vəziyyəti onun idarəetmə mədəniyyətinin göstəricisidir. Əgər küçələrdə baxımsızlıq varsa, bu, çox vaxt yalnız fərdi məsuliyyətsizliklə deyil, həm də sistemli qayğısızlıqla bağlıdır. İctimai məkanın qorunması həm fərdin, həm də dövlətin ortaq vəzifəsidir. Gözəllik hissi insanda doğulduğu kimi, məsuliyyət hissi də yaşadığı məkanda formalaşır. İnsan əgər hər gün gözəl və baxımlı bir ərazidə gəzir, o məkanı "öz yeri" kimi qəbul edirsə, o zaman onun davranışı da dəyişir. Bu, estetik tərbiyənin ən təsirli formasıdır. Görünməz, amma dərin

İctimai məkanın qorunması, əslində, insanın öz mənliyinə olan hörmətinin bir formasıdır. Küçəyə, parka, dənizə və ya dağ yoluna necə yanaşırıqsa, bu, bizim kim olduğumuzu göstərir. İnsan təbiətin, şəhərin və cəmiyyətin bir parçasıdır. Onlardan ayrı düşünmək mümkün deyil. Buna görə də, yaşadığı mühitin qaydasına və təmizliyinə biganə qalan insan, fərqinə varmadan öz varlığını da dəyərsizləşdirir. Məsuliyyət hissi yalnız qanunla və ya cərimə qorxusuyla yaranmır; o, içdən gələn bir mədəniyyət halıdır. İnsan başa düşməlidir ki, "mən atsam nə olacaq" düşüncəsi yüzlərlə dəfə təkrarlananda, o "bir" hərəkət artıq cəmiyyətin problemidir. Hər kiçik laqeydlik, ümumi bir pozğunluğun başlanğıcı ola bilər. Mədəniyyət isə məhz bu kiçik fərqlərdə özünü göstərir. Kimin yerə atmadığı, kimin yığışdırdığı, kimin susmadığı, kimin müdaxilə etdiyi yerdə formalaşır.

Ətraf mühitə qayğı göstərmək sadəcə ekoloji məsələ deyil, sosial ədalətin, etik düşüncənin və insanın öz gələcəyinə olan münasibətinin göstəricisidir. Çünki hər bir nəsil özündən sonra gələnlərə yalnız binalar, yollar və parklar deyil, həm də davranış mədəniyyəti miras qoyur. Əgər bugünkü insan ətrafını dəyərsiz sayırsa, sabahın uşağı da eyni laqeydliklə böyüyəcək.

Bu problemə yanaşma təkcə fərdlərin deyil, bütöv sistemin məsuliyyətidir. Məktəblərdə, mediada, ailələrdə və ictimai proqramlarda davranış mədəniyyəti aşılanmadan, qanun və cərimə təkbaşına nəticə vermir. İnsan qaydanı qorumaq üçün yox, onu dəyərli saydığı üçün davranmalıdır. O zaman bu məsuliyyət vərdişə, vərdiş isə təbiiliyə çevriləcək. Ətrafın qorunması həm də bir minnətdarlıq formasıdır. Torpağa, suya, ağaca və havaya minnətdarlıq. İnsan yaşadığı mühitə hörmət etdikcə, onunla arasında mənəvi bir harmoniya yaranır. Təmiz bir küçədə addımlamaq yalnız rahatlıq deyil, həm də mənəvi balans hissidir. Hər kəsin payına düşən bir damcı qayğı, bütöv bir nizamın yaranmasına səbəb ola bilər. Cəmiyyətin gözəlliyi, insanların məsuliyyətində gizlidir. Əgər hər kəs öz payına düşən qayğını göstərsə, bu dünyanı dəyişmək üçün nəhəng sistemlərə ehtiyac qalmaz. Çünki böyük dəyişikliklər hər zaman ən kiçik və ən səssiz davranışlardan başlanır.

(Qeyd: Məqalədə "zibil" sözü şüurlu olaraq tez-tez istifadə olunub. Məqsəd oxucuda mövzunun ciddiliyini və gündəlik həyatda rast gəlinən görünən problemlərin reallığını birbaşa göstərməkdir. Bu, məsələni yumşaltmaq və ya estetikləşdirməkdən çox, sosial analiz və ictimai məsuliyyətin aktuallığını vurğulamaq üçün nəzərdə tutulub).

***Nigar Şahverdiyeva***

# 3 min illik Yaxın Şərq böhranına son qoyulur?

## Donald Trampın irəli sürdüyü sülh planı çərçivəsində İsraillə Həmas arasında imzalanan sənədin müsbət nəticəsi olacağına ümidlər azdır

***Tarixi reallıq ondan ibarətdir ki, yəhudilər yerləşdikləri ərazilərdə daim problemlər içində yaşayıblar, hər zaman başqa millətlərlə qarşıdurmalarda olublar. Bu səbəbdən də dünya miqyasında yəhudilərə münasibət birmənalı deyil. Elə dövlətlər, hətta fərdlər var ki, yəhudi adı çəkiləndə susmağa, yaxasını kənara çəkməyə çalışır. Ən dəhşətlisi ondan ibarətdir ki, milli mənsubiyyəti yəhudi olduğu üçün hədəfə çevrilən, öldürülənlər də az deyil. Elə götürək A.Hitlerin yəhudilərə qarşı qətliam siyasətini. Hitlerin qəddar siyasəti nəticəsində 6 milyona yaxın yəhudi öldürülmüşdür.***

Düşünmək olar ki, əsrlər öncədən başlayan bu kimi qətliamlar yəhudilərin mübarizə ruhunu sındırıb, qəddini əzib, düşünmək, hərəkət etmək istəyini alt-üst edib. Ancaq görünən ondan ibarətdir ki, ayaqda qalmaq və mübarizəni davam etdirmək ruhu yəhudilərdə böyükdür. Eramızdan əvvəl romalılar tərəfindən kölə vəziyyətində yaşayan yəhudilər islamın günəş kimi dünyada doğmasından sonra ərəblərin quluna, alçaldılmış köləsinə çevrildi. 1287-ci azərbacanlı Səlahəddin Əyyubinin, daha sonra Osmanlı imperiyasının fələstin ərazilərini torpaqlarına qatmalarından sonra bu millət qisməndə olsa azadlıq, hürriyyət görə, qarnı doyunca qidalana bildi. Lakin 4 əsr sonra Birinci Dünya Müharibəsi ərəfəsində Osmanlıların çöküşü və ingilislərin yəhudilərin yaşadıqları əraziləri, o cümlədən də üç dinin mərkəzi şəhəri hesab olunan Qüdsün işğalından sonra yenidən yəhudilərin qara günləri başladı.

İkinci Dünya Müharibəsi ərəfəsində isə jəhudilər daha amansız qətliamlara, işkəncələrə məruz qaldılar. Fakt ondan ibarətdir ki, uzun bir dövr ərzində hər cür fəlakətlərlə, faciələrlə üzləşmələrinə baxmayraq jəhudilər sınmadılar, əksinə deyərdim ki, bəzi millətlərlə müqayisədə daha güclü olduqlarını nümayiş etdirdilər. Çünki 3 min ildən çoxdur ki, daim təhdid altında olan, öldürülən yəhudi hələ də dözümlüdür, alçaldılmış qürurunu, lağa qoyulmuş şərəfini geri qaytarmağa və sayılan, seçilən xalqlardan olduğunu göstərməyə çalışır. Bunun üçün əvvəllər Böyük Britaniyayanın vassal olaraq fəaliyyət göstərirdisə, bu gün artıq yarı müstəqil formada Amerika Birləşmiş Ştatlarının təsiri altındadır hədəfinə çatmaq uğrunda mübarizə aparır. Demək olar ki, yəhudilərin timsalında yaradılan İsrail dövləti qismən də olsa, məqsədinə çatıb. Artıq Qüdsün qərb hissəsi də daxil fələstin torpaqlarının 75 faizi İsrailin nəzarətindədir. Bu azmış kimi İsrail bir qədər də irəliyə gedərək Qəzzaya da sahib olmağa çalışır.









### Qəzzada insanlıq dramı yaşanır

2023-cü il oktyabrın 7-dən başlayaraq İsrail Fələstin torpaqlarında tarixdə görünməmiş qətliamlar törədir. BMT-nin İnsan Hüquqları Komitəsi 3 dəfə ardıcıl olaraq İsrailin Qəzzada dəhşətli soyqırımı aktı törətdiyi haqqında qətnamə qəbul edib. Beynəlxalq Hərbi tribunal baş nazir Netenyahu və komandasına daxil olan nazirlərin bir neçəsi haqqında həbs qərarı çıxarıb. Beynəlxalq ictimaiyyət İsraildən Qəzzadakı soyqımı aktlarını dayandırmağı tələb edib. 150-dən çox ölkə Fələstini dövlət olaraq tanımaqla İsrailə sərt münasibət bildirib. Lakin dünya birliyinə qarşı çıxan İsrail ABŞ-a arxalanmaqla Qəzzada və digər fələstin torpaqlarında qətliamlarını davam etdirir. İsrail ordusu Qəzzanın 88%-ni yerlə-yeksan edib, məcburi köçürmə əmrləri ilə evlərindən didərgin salınan fələstinliləri də yaşadıqları bölgələrdə tez-tez hədəf alır.

Bu azmış kimi İsrail Qəzzada yaşayan 2, 5 milyonluq insanın aclıqla öldürmək üçün anklavı blokadaya alıb. Qəzza zolağı aclığın yayıldığı, su, dərman, tibbi ləvazimat və gigiyena vasitələrinin tapılmadığı böyük bir humanitar böhran yaşayır. İsrail Misir və digər ərazilər vasitəsi ilə milyonlarla ton qida və digər zəruri məhsulların Qəzzaya daxil olmasına imkan vermir. Aclıq və səfalət isə Qəzzada yeni-yeni canlar valır. Məlumata görə, İsrail tərəfindən öldürülən 70 minə yaxın fəaləstinlinin 29 mini ancaq uşaqlardır. Hazırda 5 minə yaxın uşaq aclıqdan ölmək təhlükəsi qarşısındadır. Qəzzadakı Fələstin Səhiyyə Nazirliyinin yazılı açıqlamasında bildirilib ki, İsrail ordusunun bölgəyə tətbiq etdiyi aclıq böhranı getdikcə daha çox insanın ölümünə səbəb olur. 7 oktyabr 2023-dən bu yana aclıqdan ölənlərin ümumi sayı 453 nəfərə çatıb, onlardan 150-si uşaqlardır. Məlumatda qeyd olunub ki, BMT tərəfindən dəstəklənən İnteqrə olunmuş Qida Təhlükəsizliyi Faza Təsnifatı (IPC) 22 avqustda Qəzzada aclıq elan etdikdən sonra, aclıq və qidalanma çatışmazlığı səbəbindən 35-i uşaq olmaqla 175 nəfər ölüb.BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsinin (OCHA) nümayəndəsi Olqa Çerevko qeyd edib ki, Qəzza zolağında aclıq və ərzaq qıtlığı geniş vüsət alıb və İnteqrasiya edilmiş Qida Təhlükəsizliyi Faza Təsnifatı (IPC) çərçivəsində dərc edilən yeni hesabatda bu təsdiq heç də təəccüblü deyil: "Biz nə qədər dəhşətli olsa da, aylardır bu barədə xəbərdar etmişik. Biz bu məsələni qaldırmışıq və mümkün olan hər bir forumda onun təhlükəsini vurğulamışıq. Bunun bir neçə aydır ki, davam etdiyini və vəziyyət belə davam edərsə, ən pis ssenarini görəcəyimizi demişik".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının (BMT) 80-ci Baş Assambleyasında çıxışı zamanı bildirdi ki, Qəzzada öldürülən dinc əhalinin sayı 65 mini keçib: " Dağıntılar altında nə qədər cəsədin basdırıldığı hələlik məlum deyil. Ölənlərin 20 mindən çoxu uşaqlardır. Son 23 ay ərzində İsrail tərəfindən hər saat Qəzzadan bir uşaq vəhşicəsinə qaçırılır. Bunlar rəqəmlər deyil, dostlar. Hər biri bir candır, günahsız insandır. İnsanlar təkcə silahla deyil, aclıq ilə də öldürülür. 21-ci əsrdə sivil dünyanın nəzərləri altında 146 uşaq, 428 nəfər aclıqdan ölüb və onların sayı hər gün artır".

Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Qəzzada gündəlik həyatı əks etdirən bir fotoşəkil göstərərək bildirib ki, birinci fotoda əllərində hövzə tutan qadınlar əks olunub: "Xahiş edirəm hamımız əlimizi vicdanımızın üstünə qoyub cavab verək. 2025-ci ildə belə vəhşiliyin qanuni əsası ola bilərmi? Amma bəşəriyyətin bu biabırçı mənzərəsi 23 aydır Qəzzada hər gün təkrarlanır. 365 kvadratkilometr ərazidə yaşayan 2,5 milyon qəzzalı hər gün əzilir. Onlar hər gün başqa bölgəyə köçməyə məcbur edilir".

### Tramp bundan sonra Qəzzada insanların öldürülməyəcəyi vədini verdi

Qəzzada insanlıq dramının yaşandığı bir vaxtda Türkiyə, Misir və ABŞ-ın vasitəçiliyi ilə Qahirədə İsrail - HƏMAS danışıqları başlayıb. ABŞ prezidenti Donald Trampın "TruthSocial"da yazdığı məlumata görə, tərəflər arasında keçirilən danışıqlar müsbət sonluqla bitib: "Mən İsrail və HƏMAS-ın sülh planımızın birinci mərhələsini imzaladığını elan etməkdən böyük qürur duyuram".

ABŞ Prezidenti Donald Tramp bildirib ki, bu o deməkdir ki, bütün girovlar çox tezliklə azad ediləcək və İsrail güclü, davamlı və əbədi sülhə doğru ilk addımlar olaraq qoşunlarını razılaşdırılmış xəttə çəkəcək: "Bütün tərəflərə ədalətli davranılacaq! Bu, ərəb və müsəlman dünyası, İsrail, bütün ətraf xalqlar və Amerika Birləşmiş Ştatları üçün böyük gündür və biz bu tarixi və görünməmiş hadisənin baş verməsi üçün bizimlə işləyən Qətər, Misir və Türkiyədən olan vasitəçilərə təşəkkür edirik".

Məsələyə Rusiya tərəfindən münasibətin bildirilməsi özünü çox gözlətməyib. Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib ki, ABŞ-ın prezidenti Donald Trampın nizamlanma planı hazırda mümkün olan ən yaxşı variantdır: "Planın Fələstinin dəstəyini alacağı təqdirdə uğur qazanma şansı var. Əsas məqsəd qan tökülməsinə son qoymaq, insanların həyatını xilas etmək və daha sonra dağılmış Qəzza zolağının yenidən qurulmasıdır".

Məlumata görə, Fələstin HƏMAS hərəkatı və İsrail artıq azadlığa buraxılması nəzərdə tutulan məhbus və girovların siyahılarını mübadilə ediblər. Prosedur Qəzza zolağında atəşkəs razılaşması çərçivəsində həyata keçirilib və vasitəçilərin fəal iştirakı ilə baş tutub. HƏMAS Siyasi Bürosunun üzvü Bassem Naim bildirib ki, Qəzzada atəşkəs razılaşması İsrailin razılaşmanın birinci mərhələsini yerinə yetirməkdə "öhdəliyi yoxdur" səbəbindən təhlükə altındadır: "İsrailin gecikmələri və birinci mərhələnin həyata keçirilməsində öhdəliklərin olmaması, şübhəsiz ki, bu razılaşmanı risk altına qoyur və buna görə də o, dayandırıla və ya ləğv edilə bilər."Müharibəyə qayıdış" HƏMAS-ın nə istəyi, nə də qərarı olacaq.

İsrailin Baş naziri Benyamin Netanyahu Qəzzada saxlanılan israilli girovların "yaxın günlərdə azad ediləcəyini bildirib. Qeyd edib ki, Həmas tərksilah ediləcək və Qəzza demilitarizasiya olunacaq - istər asan, istər çətin, amma buna nail olunacaq".

Bu bəyanat Həmasın ABŞ-ın Donald Trampın irəli sürdüyü sülh planı çərçivəsində girovları azad etməyə razılaşdığı, lakin tərksilahdan imtina etdiyi açıqlamasından sonra verilib. Məlumata görə, Trampın təklif etdiyi 20 maddəlik plan döyüşlərin dərhal dayandırılmasını və 20 israilli girovun azad edilməsini, əvəzində isə yüzlərlə fələstinli məhbusun azad olunmasını nəzərdə tutur. Əl-Ərəbiyyə aydınlaşdırır ki, HƏMAS hər gün bəzi girovları azad etməyə hazırdır ki, İsrail həbsxanada olan fələstinli qadın və uşaqları azad etsin. "İsrail həmçinin atəşkəsin əvvəlindən UNRWA vasitəsilə saziş çərçivəsində və İsrailin nəzarəti altında olan xüsusi təşkilatlara və əməliyyatlara hər gün yanacaq çatdırmağı öhdəsinə götürür", - məqalə müəllifləri əlavə ediblər. Bununla belə, İsrail qoşunlarının anklavdan çıxarılmasından söhbət getmir; vəzifələrində qalacaqlar. Öz növbəsində ABŞ və Avropa ölkələri, "Əl Ərəbiyyə"nin məlumatına görə, atəşkəs rejiminə və Qəzza zolağına humanitar yardımın çatdırılmasına nəzarət edəcək.

"Ynet" nəşri İsrail Müdafiə Qüvvələrinin Qəzza zolağının əhəmiyyətli bir hissəsinə nəzarəti əlində saxlayacağını bildirib. Dərc edilmiş məlumata görə, razılaşdırılmış xətlər çəkildikdən sonra Zolaq ərazisinin təxminən 53%-i İDF-nin nəzarətində qalacaq. Hesabatda bu rəqəmin ABŞ Prezidenti Donald Trampın "Sarı Xətt"ə daxil etdiyindən təxminən 4% az olduğu aydınlaşdırılır. Nəşr qeyd edir ki, atəşkəs razılaşmasının və girov mübadiləsinin birinci mərhələsinin təsdiqi oktyabrın 9-na planlaşdırılıb. Məsələyə ilk olaraq yerli vaxtla saat 15:00-da Siyasi və Təhlükəsizlik Nazirləri, bir saat sonra isə hökumətin plenar iclası baxılacaq.

***İLHAM ƏLİYEV***

# Avrasiya nəqliyyat dəhlizləri: MDB marşrutlarının potensialı və Azərbaycan üçün əhəmiyyəti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*




**SSRİ-nin dağılmasından sonra bu böyük regionda nəqliyyat dəhlizləri baxımsız qalsa da, MDB yarandıqdan sonra onların genişləndirilməsi və yeni nəqlaiyyat şəbəkələrinin yaradılması prosesi başladı. Nəticədə keçmiş SSRİ ölkələrinin ticarət əməliyyatları və transit gəlirləri artdı.**



Nəqliyyat və iqtisadi əlaqələrin inkişafı baxımından MDB-nin formalaşdırılması vacib rol oynadı- bu, postsovet ölkələrinə onilliklər ərzində tikilən nəqliyyat sistemlərinin böyük hissəsini qoruyub saxlamağa imkan verib və bu gün onların genişləndirilməsi və yeni şəbəkələrin yaradılması üçün layihələr həyata keçirilir.

Məlumdur ki, MDB ölkələrinin ərazisindən həm regional, həm də beynəlxalq səviyyəli çoxsaylı nəqliyyat marşrutları keçir. Bunların hər biri təkcə region dövlətlərinin həyatında deyil, bütün Avrasiya iqtisadiyyatında mühüm rol oynayır. Məsələn, Şimal Avrasiya Dəhlizi Rusiya vasitəsilə Avropa və Asiyanı birləşdirir və bir sıra regional marşrutları, o cümlədən Trans-Sibir Dəmir Yolu və Uzaq Şərq limanlarına gedən EATL №1 avtomobil yolu Çin və Monqolustan filiallarını əhatə edir.

MDB daxilində bu marşrut Avrasiya quru nəqliyyat əlaqələrinin əsas təminatçısıdır və ümumi beynəlxalq daşımaların 60%-dən çoxunu təşkil edir. Lakin bu dəhliz əsasən dəmir yolu üzərində qurulub, avtomobil nəqliyyatı cəmi 3%-ni təşkil edir.

Digər mühüm marşrut MDB ölkələri vasitəsilə Çin və Qərbi Avropanı birləşdirən (ümumi həcmin təxminən dörddə birini təşkil edir) multimodal Mərkəzi Avrasiya dəhlizidir.

1990-cı illərdə yaradılmış və Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrini birləşdirən və təkcə MDB daxilində deyil, bütün Avrasiyada beynəlxalq yük daşımalarının ümumi həcminin təxminən 20%-ni təşkil edən TRASEKA Beynəlxalq Nəqliyyat Dəhlizi də eyni dərəcədə əhəmiyyətlidir.

Son illərdə Mərkəzi Asiya regionunu Çin, Türkiyə və Cənubi Avropa ilə birləşdirən multimodal Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu getdikcə əhəmiyyət kəsb edir. Üstəlik, burada dəmir yolu deyil, avtomobil nəqliyyatı əsas rol oynayır (ümumi həcmin 65%-dən çoxu). Ermənistan, Qırğızıstan və Tacikistan kimi dağlıq və dənizə çıxışı olmayan ölkələrdə avtomobil yolları ticarətin inkişafı üçün əsasdır.

Eyni zamanda Rusiyanın son illərdə irəli sürdüyü və artıq tamamlanmaqda olan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini MDB çərçivəsində nəqliyyat marşrutlarının inkişafı baxımından ən vacib hesab edirlər. O, Avrasiya İqtisadi İttifaqı ölkələri və Mərkəzi Asiya arasında, həmçinin Fars körfəzi ölkələri, Cənubi Asiya və Avropa İttifaqı arasında nəqliyyat əlaqələrini təmin edir. Onun müxtəlif qolları (qərb qolu Azərbaycandan, şərq qolu Qazaxıstan, Özbəkistan və Türkmənistandan keçir, həmçinin Xəzər dənizi vasitəsilə su yolu da var) ona MDB çərçivəsində digər qlobal və regional şərq-qərb nəqliyyat dəhlizləri ilə, o cümlədən Çinin "Bir Kəmər və Yol" təşəbbüsü çərçivəsində qurulan xətlərlə əlaqə yaratmağa imkan verir. Bundan əlavə, bu, Asiya ilə Avropa arasında yük daşınması üçün ən qısa və ən ucuz marşrutdur, məsafəni 40%, kommersiya xərclərini isə 30% azaldır.

Ekspertlər hesab edirlər ki, 2030-cu ilə qədər Şimal-Cənub Nəqliyyat Dəhlizi ilə yükdaşıma qabiliyyəti ildə 20-25 milyon tona çatacaq.

2024-cü ilin mayında Qazaxıstan Çin-Qazaxıstan-Özbəkistan marşrutu üzrə özünün "Qarşılıqsız tranzit" layihəsini işə salıb, Belarusun da bu il ərzində bu layihəyə tam qoşulacağı gözlənilir.

2024-cü ilin may ayında "2030-cu ilə qədər MDB-yə Üzv Dövlətlərinin Ərazilərindən keçən Beynəlxalq Nəqliyyat Dəhlizlərinin Optimallaşdırılması və İnkişafı Planı" təsdiq edilib. Planın əsas elementlərindən biri "MDB-nin Beynəlxalq Nəqliyyat Dəhlizinin infrastrukturunun müxtəlif nəqliyyat növləri üzrə inkişafı və istifadəsinin sinxronlaşdırılması", eləcə də nəqliyyat və logistika qovşaqlarının yaradılmasıdır. Bu onunla əlaqədardır ki, Birlik ərazisindən keçən müxtəlif nəqliyyat dəhlizləri, yuxarıda qeyd edildiyi kimi, özünəməxsus xüsusiyyətlərə malikdir: şimalda dəmir yolu nəqliyyatı, cənubda isə avtomobil nəqliyyatı daha çox inkişaf edir.

Aprelin əvvəlində Moskvada MDB ekspertləri Əsas Nəqliyyat Arteriyalarının İnteqrasiyası Konsepsiyası layihəsini razılaşdırıblar və iyulun 3-də keçirilən ikinci iclasda sənədi təsdiqləyiblər. Sənədə əsasən, təkcə infrastrukturun inkişafı, gömrük prosedurlarının sadələşdirilməsi, standartların unifikasiyası üzrə işlər deyil, həm də MDB iştirakçısı olan ölkələrin nəqliyyat sistemlərinin inkişafı strategiyalarının əlaqələndirilməsi, habelə nəqliyyat və logistika şəbəkələrinin inteqrasiyasına yönəlmiş birgə proqram və layihələrin hazırlanması nəzərdə tutulur.









Gözlənilir ki, bu cür tədbirlər təkcə MDB üzrə nəqliyyat əlaqələrini yaxşılaşdırmayacaq, həm də Birlik çərçivəsində bütün mövcud regional marşrutları hazırda formalaşmaqda olan Avrasiya Nəqliyyat Çərçivəsinə inteqrasiya edəcək. Proqnozlara görə, bu, Avrasiyadakı ticarət balanssızlığını azaldacaq, region ölkələri arasında əlaqəni gücləndirəcək, beynəlxalq daşımaların həcmini (40%) və Birlik ölkələri üçün müvafiq gəlirləri artıracaq (təkcə Mərkəzi Asiya ölkələri üçün ixracın 18% artımı proqnozlaşdırılır) və nəqliyyat xərclərini (15%-ə qədər) azaldacaq.

Bundan başqa, MDB çərçivəsində Avrasiyada Trans-Əfqan Dəhlizi (Özbəkistan-Əfqanıstan-Pakistan), Meridian şossesi (Qazaxıstan sərhədindən Rusiya ərazisi ilə Belarusa), Tacikistan-Əfqanıstan-Türkmənistan, Rusiya-Monqolustan-Çin, Çin-Qırğıxstan-Özbəkistan dəmir yolu dəhlizləri və digər layihələr kimi MDB çərçivəsində yeni nəqliyyat marşrutlarının reallaşdırılması tamamilə mümkündür. Bunlar illərdir müzakirə edilir, lakin hələ də praktiki həyata keçirilməmişdir.

MDB Dəmir Yolu Nəqliyyatı Şurasının iyunda keçirilən 82-ci iclası zamanı təkcə 2024-cü ildə şuraya üzv olan ölkələrdə yük daşımalarının 15%, sərnişin daşımalarının isə 13,4% artacağı açıqlanıb. Bundan başqa, təkcə dəmir yolu ilə 1,6 milyard tondan çox yük və 9 milyondan çox insan daşınıb ki, bu da əvvəlki illə müqayisədə 13% çoxdur. Bu artımın səbəblərindən biri kimi Birlik daxilində nəqliyyat marşrutlarının inkişafı üzrə birgə səylər göstərilib.

MDb-də dəhlizlərin idarə edilməsi mexanizmlərinin işlənib hazırlanması, tarif şərtlərinin əlaqələndirilməsi, rəqəmsallaşmanın həyata keçirilməsi və logistikanın təkmilləşdirilməsi məqsədilə Beynəlxalq Nəqliyyat Dəhlizlərinin İnkişafı üzrə Strateji Qrup yaradılıb. Sadə dillə desək, bu gün bütün MDB üzvləri arasında Birlik çərçivəsində bütün mövcud nəqliyyat marşrutlarının-avtomobil, dəmir yolu, su və hətta hava marşrutlarının genişləndirilməsi və onları Avrasiya regionunda yerləşən beynəlxalq nəqliyyat dəhlizləri ilə əlaqələndirmək üçün birgə işləməyin zəruriliyi barədə tam razılıq var.

Ona görə də etiraf etmək lazımdır ki, Avrasiyadan keçən əksər nəqliyyat marşrutlarının gələcəyi daha çox MDB ölkələrinin fəaliyyətindən asılıdır. Bu həm MDB-yə üzv dövlətlərin coğrafi mövqeyi, həm də son illərdə qlobal ticarətdə baş verən dəyişikliklərlə bağlıdır. Bundan başqa, son illərdə nəzərdə tutulmuş tədbirlər həyata keçirilərsə və MDB-nin əsas nəqliyyat arteriyaları Avrasiya beynəlxalq nəqliyyat dəhlizləri ilə birləşdirilərsə, onların ümumi səmərəliliyi kəskin şəkildə artacaq, region dövlətlərinin sosial-iqtisadi inkişafı əhəmiyyətli dərəcədə yaxşılaşacaq.

Qeyd etmək lazımdır ki, əlverişlik coğrafi mövqeyə malik olan, yaxşı təşkil olunmuş avtomobil və dəmiryol xətlərinə malik olan, həmçinin Xəzər dənizi vasitəsilə qonşu ölkələrə və dünya okeanına çıxışı olan Azərbaycan bu qlobal nəqaliyyat dəhlizlərinin əsas ölkələrindən biridir. Ölkəmiz bu dəhlizlər vasitəsilə həm öz ticarətini genişləndirmək, həm də böyük tranzit gəlirlər əldə etmək imkanı qazanır. Bu isə ölkəmizin iqtisadi və siyasi nüfuzunu artırır. Həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizlərinin keçdiyi əsas ölkələrdən biri də Azərbaycandır. Ölkəmiz burada Avrasiyanın nəqliyyat qovşağına çevrilir və bu da son dərəcə güclü dividentlər vəd edir.

***Elçin Bayramlı***

SON SƏHİFƏ

# SƏS

10 oktyabr
2025-ci il

# “Həyat tərzində ciddi dəyişikliklər vacibdir”

## Sağlam qidalanma mütəxəssisi mühüm məqamlara aydınlıq gətirdi



“Müasir dövrdə istehsal olunan bir çox qida məhsulları xüsusilə sürətli hazırlanmağa uyğunlaşdırılmış, konservləşdirilmiş və yüksək şəkər tərkibli məhsullar insan sağlamlığı üçün ciddi risk yaradır. Ağ çörək, düyü, kartof püresi, makaronlar, qazlı və rəngli içkilər, şirniyyatlar, müxtəlif desertlər, eyni zamanda uzunömürlü paketlənmiş məhsulların tərkibindəki kimyəvi qatqılar, boya maddələri və qida boyaları, həmçinin fast food məhsulları və hazır meyvə şirələri davamlı şəkildə istifadə olunduqda insulin dirənci (insulin rezistenliyi) və şəkərli diabetin yaranmasına səbəb ola bilər”. Bu sözləri SİA-ya açıqlamasında Qida təhlükəsizliyi Hərəkatının rəhbəri, Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib. O bildirib ki, insulin hormonu qlükozanı (qan şəkərini) hüceyrələrə daşıyaraq onu enerji ilə təmin edir: ”Lakin insulin dirənci olan insanlarda bu proses pozulur, şəkər hüceyrələrə daşınmır və qanda səviyyəsi yüksəlir. Bu isə zamanla piylənməyə, II tip şəkərli diabetə, ürək-damar xəstəliklərinə və hormonal pozğunluqlara səbəb olur.

Bu halların qarşısını almaq üçün həyat tərzində ciddi dəyişikliklər vacibdir. Belə ki, gec saatlara qədər oyaq qalmamaq, ən geci 23:00-da yatmaq, qida qəbulunu gündəlik enerji sərfiyyatına uyğunlaşdırmaq, sadalanan zərərli qidaları rasiondan çıxarmaq vacibdir. Eyni zamanda daha çox zülalla zəngin - yağsız ət, toyuq, balıq, yumurta və paxlalılar (lobya, mərcimək, noxud) istifadə etmək, faydalı yağlara üstünlük vermək (zeytun yağı, qoz, fındıq, badam), aşağı qlisimik indeksli düyü, çörək və yulaf seçmək, şəkəri az olan meyvə və tərəvəzlərdən istifadə etmək, lifli qidalarla (meyvə, tərəvəz) qidalanmaq qan şəkərinin tədricən yüksəlməsinə kömək edir.

Gün ərzində, xüsusilə yuxudan əvvəl, ən azı 30-35 dəqiqə fiziki aktivlik (yüngül yürüş, üzgüçülük, velosiped sürmək və s.) tövsiyə olunur. Əgər bir şəxs tez-tez acırsa, şirniyyata meyillidirsə, qarın nahiyəsində piylənmə hiss edirsə və arıqlamaq çətindirsə, bu zaman insulin və qlükoza səviyyəsinin laborator şəraitdə yoxlanılması vacibdir”.

***Səbinə Hüseynli***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Xalq artisti Əminə Yusifqızı vəfat edib



Xalq artisti Əminə Yusifqızı ilə əlaqədar oktyabrın 9-u saat 14:20 radələrində Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə müraciət daxil olub. Bu barədə SİA-nın sorğusuna cavab olaraq Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) məlumat verilib. Bildirilib ki, çağırış ünvanına dərhal təcili tibbi yardım briqadası cəlb olunub. Bu zaman Xalq artistinin həkiməqədər ölüm faktı qeydə alınıb.

## BOKT-larda kredit şərtləri: fırıldaqçılıq, yoxsa...

*EKSPERT AÇIQLADI*





Son zamanlarda bank olmayan kredit təşkilatlarının təklif etdiyi yüksək faizlər və qeyri-şəffaf şərtlər bir çox vətəndaşın narazılığına səbəb olur. Götürülən kreditin üzərinə əlavə olunan müxtəlif adlar altında faizlər, xidmət və komissiya haqları bəzən əsas borcun özündən də çox olur. Bəs, bu qanunvericilikdə necə tənzimlənir? Ötən il Azərbaycan Mərkəzi Bankı ”Bank olmayan kredit təşkilatlarında kredit risklərinin idarə edilməsi Qaydası”nı təsdiq etdi və həmin qərar ilin əvvəlindən tətbiq olunur. Qərara əsasən, BOKT-ların verdiyi gündəlik kreditlərə dair aşağıdakı tələblər müəyyənləşdirilib:

- milli valyutada verilir;
- maksimum məbləği 500 manatdır;
- gündəlik faiz dərəcəsi maksimum 0,3 %-dir;
- qaytarılma müddəti maksimum 45 gündür;
- gecikdirilmiş ödənişlərlə bağlı tətbiq edildikdə, gecikdirilmə faizləri və ya dəbbə pulu əsas borc qalığı məbləğinə gündəlik tətbiq olunan faiz dərəcəsinin 2 mislindən çox olmamalıdır;
- kredit üzrə edilməli olan bütün ödənişlərin ümumi məbləği əsas borcun 100 %-dən çox olmamalıdır;
- gecikdirmə faizləri və ya dəbbə pulu tətbiq edildikdə, əsas borc üzrə faizlər 30 gündən artıq hesablanmamalıdır;

Bu qərarın təsdiqindən sonra vəziyyətin dəyişəcəyi güman olunsa da, cari vəziyyət qismən dəyişdi, amma vətəndaş hələ də əlavə olaraq borclandırılır. Məsələ ilə bağlı bank üzrə ekspert Əkrəm Həsənov SİA-ya açıqlamasında bildirib ki, bank olmayan kredit təşkilatları (BOKT-lar) Azərbaycan qanunvericiliyinə əsasən, kommersiya fəaliyyəti göstərən və bank lisenziyası olmadan maliyyə xidmətləri təklif edən qurumlardır: ”Bu təşkilatlar kredit vermək, pul köçürmələri aparmaq, lizinq xidmətləri göstərmək və digər maliyyə əməliyyatlarını həyata keçirmək hüququna malikdirlər. Lakin banklardan fərqli olaraq, onların fəaliyyətlərinə tətbiq edilən tənzimləyici çərçivələr daha çevik və müəyyən mənada az məhdudlaşdırıcıdır.

BOKT-ların təklif etdiyi faiz dərəcələri, komissiya məbləğləri və digər xidmət haqları üzrə hazırda heç bir konkret yuxarı hədd və ya qanuni limit müəyyən olunmayıb. Bu o deməkdir ki, bu təşkilatlar bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq, öz xidmətlərini sərbəst şəkildə qiymətləndirə və müxtəlif şərtlərlə təqdim edə bilirlər. Onlar istədikləri faiz dərəcəsi, cərimə mexanizmi və xidmət haqqı tətbiq edə bilərlər, yetər ki, bu barədə müştəriyə əvvəlcədən tam, şəffaf və başadüşülən şəkildə məlumat versinlər. Bu baxımdan, vətəndaşların belə təşkilatlarla müqavilə bağlayarkən diqqətli olmaları, müqaviləni tam oxuyaraq anlamaları və şərtlərdən əmin olduqdan sonra qərar vermələri vacibdir. Əks halda, yüksək faiz dərəcələri, gözlənilməz komissiyalar və sərt cərimə mexanizmləri ilə üzləşmək ehtimalı arta bilər”.

***Arzu Qurbanlı***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**